# XƏZƏRDƏ YENİ PİLOTSUZ GÜC



Azərbaycan HHQ-nin balansında olan pilotsuz uçuş aparatlarının uğurlu tətbiqindən sonra bu təcrübəni dəniz qüvvələrində də tətbiq edir.

Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan tək silah alıcısı yox, həm də güclü müdafiə sənayesi potensialına malik ölkə statusunu əldə etməyi başlıca hədəflərindən biri elan edib. HDQ-nin balansına verilən SALVO silahlı insansız dəniz vasitələri, KAYRA kamikadze insansız dəniz vasitələri bu hədəfin reallığa çevrilməsi istiqamətində əməli addımların atıldığını göstərir.

SƏHİFƏ 3-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

12 SENTYABR ŞƏNBƏ 2026 № 34 (4285) Qiyməti - 60 qəpik www.kaspi.az



## BAKIDA FAYDALI İQLİM MÜZAKİRƏLƏRİ

Xarici işlər naziri Ceyhun Bayramov: "Dünyada hazırda sürətli ekoloji dəyişikliklər baş verir. Bu dünyanın hər bir yerində, o cümlədən regionumuzda baş verir. Bunun ən bariz nümunəsi Xəzər dənizidir".

SƏHİFƏ 10-da



## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURA 22-Cİ SƏFƏR

Diplomatik korpus nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura iki günlük səfəri başlayıb. Səfərdə 58 ölkə və doqquz beynəlxalq təşkilatı təmsil edən 150 nəfərdən ibarət heyət iştirak edir.

SƏHİFƏ 2-də

"SON MƏLUMATLAR PROSESİN 2027-Cİ İLDƏ BAŞLAYACAĞINI GÖSTƏRİR"

# BAKININ QƏTİYYƏTİ, VAŞİNQTONUN DƏSTƏYİ




Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu (TRIPP) ilə bağlı proseslər intensivləşib. Bir zamanlar xəyal kimi görünən Zəngəzur dəhlizi layihəsi artıq reallığa çevrilməkdədir.

### AZƏRBAYCANI DA MƏLUMATLANDIRIRLAR

TRIPP-lə bağlı əsas danışıqlar ABŞ və Ermənistan arasında aparılır. Çünki bu layihənin müəyyən hissəsi Ermənistan ərazisinə düşür. Eyni zamanda, ABŞ-dən olan tərəfdaşlar mütəmadi şəkildə Azərbaycan tərəfini danışıqların gedişatı barədə məlumatlandırırlar.

### BAKI VƏ İRƏVANIN ORTAQ YANAŞMASI

TRIPP-lə bağlı digər mühüm məqam sərhədlərin delimitasiyası ilə bağlıdır. Layihənin giriş və çıxış nöqtələrində sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı konkret razılaşmalar olmasa da, bu istiqamətdə də tərəflər arasında intensiv müzakirələrin aparıldığı bildirilir.

SƏHİFƏ 4-də



## SUBSİDİYA SİSTEMİNDƏ YENİ DÖVR

Azərbaycanda kənd təsərrüfatında subsidiya siyasəti yenilənir. Təsdiq edilən yeni mexanizmlə texnologiya tətbiq edən fermerlərə daha yüksək dəstək veriləcək, subsidiya verilən istiqamətlər genişləndiriləcək.

SƏHİFƏ 6-da



## İCTİMAİ NƏQLİYYATDA YENİ DÖNƏM BAŞLAYIR

İctimai nəqliyyatda "Brutto müqavilə"sinin tətbiqinə başlanılır. Bu, daşıyıcıların gəlir əldə etmə prinsipini dəyişməklə yanaşı, ictimai nəqliyyatda xidmətin təşkilinə münasibətin də yenilənməsini nəzərdə tutur.

SƏHİFƏ 7-də

Bundan daha mənalı vida yeri ola bilməzdi

# ƏLVİDA, BÖYÜK USTAD!



Xalq artisti Aleksandr Şarovski ilə illər əvvəl - Rus Dram Teatrının 90 illik yubileyi ərəfəsində görüşmüşdüm. O teatra ayaq qoyan kimi fərqli ab-hava diqqətdən qaçmır. Əlbəttə, bu atmosferi yaratmaq teatr rəhbərliyindən çox asılıdır. Sentyabrın 9-da Aleksandr Şarovski uzun sürən xəstəlikdən sonra, 78 yaşında dünyasını dəyişdi.

SƏHİFƏ 9-da



## RƏQƏMLƏRİN ARXASINDAKI SOSİAL REALLIQ

Azərbaycanda "Qocalar evi"ndə yaşayanların sayı azalıb. Mütəxəssislər bunu müsbət tendensiya kimi qiymətləndirirlər. Azalmaya səbəb kimi isə sosial xidmətlərin alternativ formalarının genişlənməsi göstərilir.

SƏHİFƏ 15-də



## ŞAHMAT ELİTASI SƏMƏRQƏNDDƏ TOPLAŞIR

Azərbaycanın böyük şahmat ənənəsi yeni nəsillə davam edir. Şəhriyarın təcrübəsi, gənc şahmatçıların yüksəlişi və qadın komandamızın formalaşmış heyəti nikbinlik üçün kifayət qədər əsas verir.

SƏHİFƏ 16-da



Şahbaz Şərif Azərbaycana səfər edəcək

SƏHİFƏ 2-də



Folklend münaqişəsi yenidən qızışır

SƏHİFƏ 5-də



Əllər dayanacaq, beyinlər işləyəcək

SƏHİFƏ 12-də



Paytaxtın ikitəkərli problemi

SƏHİFƏ 13-də



Bədənimiz "offline" olanda

SƏHİFƏ 14-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## Şahbaz Şərif Azərbaycana səfər edəcək

Pakistanın Baş naziri Şahbaz Şərif oktyabrda Azərbaycana səfər edəcək. Bu barədə “Report”a diplomatik korpus nümayəndə heyətinin tərkibində Qarabağ bölgəsinə səfər edən Pakistanın Azərbaycandakı səfiri Qasım Mohiuddin bildirib.

Diplomatın sözlərinə görə, Ş.Şərif Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin sammitində iştirak etmək üçün Azərbaycana səfər edəcək. Qeyd edək ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VII Sammitinin oktyabrın ortalarında Bakıda keçirilməsi planlaşdırılır.



## Kinematoqrafçılar İttifaqına yeni sədr seçildi

Azərbaycan Kinematoqrafçılar İttifaqına (AKİ) yeni sədr seçilib. Oxu.az xəbər verir ki, yeni sədr postu Xalq artisti Şəfiqə Məmmədovaya həvalə edilib. Qeyd edək ki, səsvermə sentyabrın 11-də Nizami Kino Mərkəzində keçirilən konfransda baş tutub. Xatırladaq ki, AKİ-nin sədri, Xalq artisti Rasim Balayev vəfat etdikdən sonra onun səlahiyyətlərini Şəfiqə Məmmədova icra edirdi. Bundan əvvəl qurumun katibi Əli İsa Cabbarovun namizədliyi irəli sürülmüşdü. Ötən ay Ə.Cabbarov namizədliyini geri çəkdiyini və işdən çıxmaqla bağlı ərizə təqdim etdiyini elan etmişdi. Bildirilmişdi ki, onun ərizəsi yalnız yeni sədr seçiləndən sonra təsdiqlənə bilər.

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURA 22-Cİ SƏFƏR




Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura iki günlük səfəri başlayıb. Səfərdə 58 ölkə və doqquz beynəlxalq təşkilatı təmsil edən 150 nəfərdən ibarət heyət iştirak edir.

Sentyabrın 11-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura iki günlük səfəri başlayıb. Səfərdə 58 ölkə və doqquz beynəlxalq təşkilatı təmsil edən 150 nəfərdən ibarət heyət iştirak edir. Bu, diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə 2020-ci ildən etibarən sayca 22-ci səfəridir.

### YENİDƏNQURMA SAHƏSİNDƏ UNİKAL TƏCRÜBƏ

Hikmət Hacıyev diplomatik korpusa müraciətində bildirib ki, Azərbaycanın müharibədən sonrakı bərpa və əhalinin qayıdışı ilə bağlı topladığı təcrübə dünyanın münaqişə, eləcə də müharibələrdən zərər çəkmiş digər regionlarında tətbiq oluna bilər. O qeyd edib ki, mina təhlükəsi işğaldan azad edilmiş ərazilərin bərpasına və əhalinin təhlükəsiz qayıdışına mane olmağa davam edir.

Prezidentin köməkçisi bildirib ki, indiyədək Qarabağa 40 mindən çox keçmiş məcburi köçkün qayıdıb və onların sayı artmaqda davam edəcək. Eyni zamanda 2020-ci ildən bəri 45-dən çox yaşayış məntəqəsi bərpa edilib və yenidən qurulub. Onun sözlərinə görə, hazırda Qarabağda 100 minə yaxın vətəndaş yaşayır, işləyir və təhsil alır. H.Hacıyev bunu Azərbaycanın postmünaqişə dövründə bərpa və yenidənqurma sahəsində topladığı unikal təcrübə adlandırıb.



İssam bin Saleh əl-Cuteyli

### XANKƏNDİDƏ ARTIQ 28 MİN NƏFƏR YAŞAYIR

Qeyd edək ki, diplomatik korpus nümayəndələri Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksində aparılan tikinti işlərinin gedişatı ilə tanış olublar. Onlara aparılan tikinti işləri barədə ətraflı məlumat verilib. Diplomatik korpus Xankəndidə Zəfər parkını da ziyarət edib.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Xankəndidəki Mədəniyyət Mərkəzini də ziyarət ediblər.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov bildirib ki, bu gün Xankəndidə artıq 28 min nəfər yaşayır və işləyir. O qeyd edib ki, keçmiş məcburi köçkünlərin Xankəndiyə qayıdış prosesi fəal şəkildə davam edir. “Hazırda Xankəndidəki Qarabağ Universitetində 3 mindən çox tələbə təhsil alır. Bu, ümumi əhalinin 10%-dən çoxunu təşkil edir”, - Yusubov bildirib. Onun sözlərinə görə, şəhərdə yeni yaşayış binaları və parklar tikilir, müasir tələblərə cavab verən yollar çəkilir: “Eyni zamanda, şəhərin görünüşünə və müasir şəhərsalma standartlarına uyğun olmayan tikililərin sökülməsi prosesi sürətlənib. Bununla yanaşı, yeni tələblərə cavab verən müasir binaların tikintisi üzrə layihələndirmə işlərinə başlanılıb”.

## ƏCNƏBİ DİPLOMATLARIN SƏFƏR TƏƏSSÜRATLARI

Qarabağa səfər edən diplomatik korpus nümayəndələri də media ilə təəssüratlarını bölüşüblər.

Pakistanın Azərbaycandakı səfiri Qasım Mohiuddin bildirib ki, ölkəsi Qarabağın bərpasında iştirak etməyə, o cümlədən bu işə tikinti şirkətlərini cəlb etməyə hazırdır. Diplomat regionda aparılan bərpa işlərini yüksək qiymətləndirərək, Xankəndinin fəal inkişafını qeyd edib: “Azərbaycan burada bərpa işləri üzrə qızıl standartın yaradılması ilə qürur duymalıdır. Bu, beynəlxalq ictimaiyyət üçün bir nümunədir – müharibədən ciddi zərər çəkmiş ərazini belə qısa müddət ərzində necə bu cür gözəl bərpa etmək olar”.

Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri İssam bin Saleh əl-Cuteyli bildirib ki, ölkəsindən olan bir qrup iş adamı Qarabağ bölgəsinə səfər edərək investisiya imkanları və potensial layihələrlə tanış olmağı planlaşdırır. Səfir həmçinin Qarabağda aparılan bərpa işlərini yüksək qiymətləndirib. “Bu, yəqin ki, mənim Qarabağa artıq onuncu səfərimdir. Hökumət burada həqiqətən çox fəal işləyir. Çoxlu obyektlər - iki və ya üç xəstəxana, universitet, mədəniyyət mərkəzi tikilib. Hazırda dəmir yolu vağzalı və avtovağzalla bağlı işlər aparılır”, - səfir qeyd edib.

# XƏZƏRDƏ YENİ PİLOTSUZ GÜC

Azərbaycan Hərbi Hava Qüvvələrinin balansında olan pilotsuz uçuş aparatları, kamikadze dronların uğurlu tətbiqindən sonra bu təcrübəni dəniz qüvvələrində də tətbiq edir. Bu modern təchizat siyasəti sistemli işin nəticəsi olaraq meydana çıxır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az





Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin (HDQ) maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı addımları geniş rezonans doğurub. Bu, rəsmi Bakının son illərdə həyata keçirdiyi Silahlı Qüvvələrin müasir çağırışlara uyğun modernləşdirilməsi siyasətinin davamlı xarakter daşıdığının göstəricisi kimi dəyərləndirilir.

### İNSANSIZ DƏNİZ VASİTƏLƏRİ PRAKTİKİ SINAQDAN KEÇİRİLİB

Xatırladaq ki, bir neçə gün əvvəl Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hərbi Dəniz Qüvvələrində olublar. Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən "MİRAS Hərbi-Sənaye Şirkəti" MMC-nin və "DEARSAN Gəmi İnşaat Sənaye" AŞ-nin birgə istehsalat sahəsində qabaqcıl texnoloji innovasiyaların tətbiqi ilə hazırlanan SALVO (SİDV) silahlı insansız dəniz vasitələri, KAYRA (KİDV) kamikadze insansız dəniz vasitələrinin təyinatı və taktiki-texniki xüsusiyyətləri barədə məlumat verilib. Dövlət başçısı və birinci xanım istehsalat sahəsində görülən işlərlə tanış olublar. Daha sonra burada istehsal olunan insansız dəniz vasitələri praktiki sınaqdan keçirilib.

### GENİŞLƏNƏN HƏRBİ-TEXNİKİ ƏMƏKDAŞLIQ COĞRAFİYASI

Hazırda dünyada yaşanan gərginliklər fonunda dövlətlərin hərbi potensialı, Silahlı Qüvvələrinin maddi-texniki təchizatı və peşəkarlığı ən çox diqqət yetirilən sahələrdən biridir. Azərbaycanın həm şimal, həm də cənub sərhədlərində müharibələrin davam etməsi, Ermənistan amili və digər məqamlar rəsmi Bakının da hərbi sahəni prioritet elan etməsini şərtləndirən başlıca amillərdir. Bu siyasətin tərkib hissəsi olaraq, Azərbaycan ali rəhbərliyinin iradəsi ilə ölkəmizin müdafiə, hərbi-texniki əməkdaşlıq coğrafiyası da sürətlə genişlənir. Türkiyə, İsrail kimi ölkələrlə ənənəvi hərbi tərəfdaşlıqlar fonunda son illərdə Çin, Pakistan, İtaliya, Serbiya, Slovakiya, Böyük Britaniya və digər dövlətlərlə də müdafiə sahəsində qarşılıqlı maraqlara uyğun əməkdaşlıq modelləri formalaşdırılıb. Bu əməkdaşlıq kanalları Silahlı Qüvvələrin təchizatı kimi mühüm əhəmiyyət kəsb edən strateji məsələdə rəsmi Bakının manevr imkanlarını, müstəqil hərəkət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır.

### HDQ-NİN GÜCLƏNƏN POTENSİALI

Bununla yanaşı, dövlət başçısının da qeyd etdiyi kimi, Azərbaycan tək silah alıcısı yox, həm də güclü müdafiə sənayesi potensialına malik ölkə statusunu əldə etməyi başlıca hədəflərindən biri elan edib. Ali Baş Komandanın iştirakı ilə HDQ-nin balansına verilən SALVO silahlı insansız dəniz vasitələri, KAYRA kamikadze insansız dəniz vasitələri bu hədəfin reallığa çevrilməsi istiqamətində əməli addımların atıldığını göstərir. Türkiyənin aparıcı gəmiqayırma zavodlarından biri olan DEARSAN tərəfindən hazırlanmış silahlı pilotsuz nəqliyyat vasitəsi SALVO müasir dəniz və təhlükəsizlik əməliyyatları üçün nəzərdə tutulmuş çoxfunksiyalı platformadır. Döyüş tapşırıqlarına əlavə olaraq, platforma sahil və dayaz su əməliyyatları, sahil mühafizəsi missiyaları, sərhəd patrulu, axtarış-xilasetmə əməliyyatlarına dəstək, qaçaqmalçılıq və narkotik qaçaqmalçılığına qarşı mübarizə də daxil olmaqla müxtəlif missiyalarda istifadə edilə bilər. Qeyd edək ki, Azərbaycan HDQ həm də yerli müdafiə sənayesi tərəfindən hazırlanmış "Suqovuşan" və "Kalan" kiçik dəniz kamikadze dronlarına da sahibdir.

## DÜNYANIN AZSAYLI ÖLKƏLƏRİ ARASINDA







Hərbi Hava Qüvvələrinin balansında olan pilotsuz uçuş aparatları, kamikadze dronların uğurlu tətbiqindən sonra bu təcrübənin dəniz qüvvələrində də tətbiqi modern təchizat siyasətinin sistemli şəkildə həyata keçirildiyini bir daha təsdiqləyir. HDQ-nin balansına verilən bu vasitələrin ölkəmizdə istehsalı Azərbaycanın tək mülki gəmilər yox, artıq ən müasir hərbi dəniz vasitələri sahəsində də istehsal gücünün olduğunu göstərir. Bu addımla ölkəmiz dünyada azsaylı pilotsuz hərbi dəniz vasitələri istehsal etmək gücündə olan ölkələr sırasında yer alıb.

### XƏZƏRDƏKİ STRATEJİ MARAQLARIMIZ

HDQ-nin hərbi potensialının gücləndirilməsi həm də ölkəmizin Xəzər dənizində milli maraqlarının ən yüksək səviyyədə müdafiəsi imkanlarını genişləndirir. Xəzərin Azərbaycan sektorunda dünyanın enerji təhlükəsizliyinə və ölkəmizin iqtisadi inkişafına mühüm töhfələr verən böyük neft-qaz platformaları fəaliyyət göstərir. Xəzərlə bağlı Azərbaycan üçün digər prioritet istiqamət isə son illərdə tranzit daşımalarla bağlıdır. Orta Dəhlizin mühüm tərkib hissəsi olan Transxəzər marşrutunun təhlükəsizliyinin təmini, etibarlı fəaliyyəti də Azərbaycanın strateji maraqları çərçivəsindədir. HDQ-nin müxtəlif növ dəniz dronları ilə silahlandırılması, Türkiyə şirkəti ilə birgə SALVO və KAYRA platformalarının istehsalı ölkəmizə Xəzər dənizindəki strateji maraqlarının qorunmasında əhəmiyyətli üstünlük verir.

Son illərdə ölkəmizin həyata keçirdiyi hərbi əməkdaşlıq siyasəti dünyanın bir çox aparıcı hərbi mərkəzləri tərəfindən diqqətlə öyrənilir. Azərbaycanın müasir təhdid və çağırışlara uyğun, ən müasir hərbi-texniki təchizat addımları bu sahədə nümunəvi modellərdən biri kimi təqdim edilir. Silahlı Qüvvələrimizin balansında ən müxtəlif silah sistemlərinin vahid platformada birləşdirilməsi, inteqrasiyası sözügedən sahədə Azərbaycanın həqiqətən də ən uğurlu ölkələrdən biri olduğunu təsdiqləyir.



# BAKININ QƏTİYYƏTİ, VAŞİNQTONUN DƏSTƏYİ

Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu (TRIPP) ilə bağlı proseslər intensivləşib. Bir zamanlar xəyal kimi görünən Zəngəzur dəhlizi layihəsi artıq reallığa çevrilməkdədir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az




## Dəhlizlə bağlı Bakı və İrəvanın ortaq yanaşması

Azərbaycan və Ermənistan arasında sülh prosesinin mühüm tərkib hissəsi olan Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu (TRIPP) – Zəngəzur dəhlizi ilə bağlı proseslər diqqət çəkir. Bişkekdə Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında baş tutan görüşdə də əsas müzakirə istiqamətlərindən biri məhz Zəngəzur dəhlizi olub.

### "ÖLKƏMİZİN BİLAVASİTƏ İŞTİRAKI OLMADAN..."

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov da mediaya açıqlamasında bildirib ki, TRIPP-lə bağlı əsas danışıqlar Amerika Birləşmiş Ştatları və Ermənistan arasında aparılır. Çünki bu layihənin müəyyən hissəsi Ermənistan ərazisinə düşür. Eyni zamanda, Amerika Birləşmiş Ştatlarından olan tərəfdaşlar mütəmadi şəkildə Azərbaycan tərəfini danışıqların gedişatı barədə məlumatlandırırlar. Belə ki, layihənin həm daxilolma, həm çıxış nöqtəsi Azərbaycan sərhədidir və ölkəmizin bilavasitə iştirakı olmadan layihənin həyata keçirilməsi mümkünsüzdür.

### "SON MƏLUMATLAR PROSESİN 2027-Cİ İLDƏ BAŞLAYACAĞINI GÖSTƏRİR"

Nazir qeyd edib ki, razılaşmaları həyata keçirmək üçün müəyyən bir vaxt lazımdır. "Bizə verilən məlumata görə, danışıqlar uğurla davam etdirilir. Hesab edirik ki, bu layihənin bir qədər tez icra olunması daha yaxşıdır. Çünki layihə həm Azərbaycan, həm Ermənistan, eləcə də digər maraqlı ölkələr üçün olduqca faydalıdır. Azərbaycan layihənin icrası istiqamətində üzərinə düşən işləri uğurla davam etdirir. Eyni zamanda, dövlətimizin başçısının göstərişinə əsasən, Naxçıvan Muxtar Respublikası ərazisində dəmir yolu xətlərinin bərpa edilməsi istiqamətində də müvafiq işlərə başlanılıb. Sözügedən layihədə iştirak etməkdə maraqlı beynəlxalq tərəfdaşlar da mövcuddur, onlarla da danışıqlar aparılır",- deyə nazir bildirib. Nazir bu istiqamətdə konkret vaxt da açıqlayıb. "Son məlumatlar prosesin 2027-ci ildə başlayacağını göstərir", - deyə o bildirib.

TRIPP-lə bağlı digər mühüm məqam sərhədlərin delimitasiyası ilə bağlıdır. Layihənin giriş və çıxış nöqtələrində sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı hələlik konkret razılaşmalar olmasa da, bu istiqamətdə də tərəflər arasında intensiv müzakirələri aparıldığı bildirilir. Ümumilikdə sərhəd məsələsində Bakı və İrəvanın ortaq yanaşması bəllidir. "Ümumi sərhədimizin delimitasiyasının hansı istiqamətdən başlayaraq irəliləməsi ilə bağlı razılıq mövcuddur. İşlərin daha çətin olan şimal sərhədindən, Azərbaycan, Ermənistan və Gürcüstanın kəsişmə nöqtəsindən başlayaraq şimaldan cənuba doğru aparılması və irəliləməsi istiqamətində razılıq və qarşılıqlı anlaşma var", - deyə C.Bayramov bildirib. XİN başçısı daha spesifik məsələlərin delimitasiya komissiyalarının işinin gedişində müzakirə olunacağını və həllinin gözlənildiyini vurğulayıb. Təbii ki, spesifik məsələlər sırasında Zəngəzur dəhlizi ilə bağlı məqamlar da öz əksini tapır.



Sarkis Xandanyan

### ERMƏNİSTANDAN GƏLƏN MÜSBƏT MESAJLAR

Məsələ ilə bağlı İrəvandan gələn mesajlar da müsbətdir. "Azərbaycan və Ermənistan dövlət sərhədinin Tramp Marşrutunun keçəcəyi hissəsinin delimitasiyasını apara bilər", - deyə Ermənistanın hakim "Vətəndaş müqaviləsi" fraksiyasının deputatı, parlamentin Xarici əlaqələr üzrə daimi komissiyasının sədri Sarkis Xandanyan jurnalistlərə açıqlamasında bildirib. "TRIPP həyata keçirilməyə başlayanda, məsələn, dəmir yolunun keçəcəyi və ya neft və qaz kəmərlərinin çəkiləcəyi sahələrdə qismən delimitasiya işlərinin aparılması ehtimalı var. Yəni, lokal sahələr baxımından delimitasiya məntiqinin dəyişməsi mümkündür, lakin ümumi məntiq ondan ibarətdir ki, delimitasiya şimaldan cənuba doğru aparılmalıdır", - o deyib.

### VAŞİNQTONUN KOORDİNASİYALI FƏALİYYƏTİ

TRIPP-lə bağlı əsas aparıcı rola malik tərəflərdən biri təbii ki, ABŞ-dir. Bu baxımdan Vaşinqtonun sözügedən istiqamətdə atdığı addımlar da maraq doğurur. Ağ Evin sözügedən məsələdəki aktivliyi Zəngəzur dəhlizinin qısa müddətdə reallaşması ehtimalını da artırır. Vaşinqtonun bu məsələdə yürütdüyü siyasət təqdirəlayiqdir. Əsas müzakirələrin İrəvan və Vaşinqton arasında aparılmasına baxmayaraq, ABŞ-nin rəsmi Bakını da daim məlumatlandırması, koordinasiyalı fəaliyyətə və tərəflərin maraqlarının uzlaşdırılmasına ciddi dəstək verməsi mühüm məqamlardandır.

Bu xüsusda ABŞ-nin Ermənistandakı müvəqqəti işlər vəkili Deyvid Alenin Azərbaycana səfəri diqqət çəkir. Qeyd edək ki, sentyabrın 8-də Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov ölkəmizdə səfərdə olan ABŞ-nin Ermənistandakı müvəqqəti işlər vəkili Deyvid Alen ilə görüşüb. Görüşdə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, sülh prosesinin irəliləd ilməsi, uzunmüddətli və dayanıqlı sülhün təmin olunması, eləcə də regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində atılan addımlar müzakirə edilib. Tərəflər Tramp Marşrutunun icrası istiqamətində aparılan fəaliyyət, habelə marşrutla bağlı infrastrukturun inşasına rəhbərlik edəcək TRIPP İnkişaf Şirkətinin yaradılması məsələləri ətrafında da fikir mübadiləsi aparıblar.

Azərbaycan səfərindən əvvəl isə, ABŞ-nin müvəqqəti işlər vəkili Devid Allen və Dövlət Departamentinin Siyasi planlaşdırma şöbəsinin baş məsləhətçisi Conatan Askonasın da aralarında yer aldığı Ermənistan və ABŞ nümayəndələri TRIPP layihəsi çərçivəsində yolun Ermənistan hissəsinin tikintisinin davam etdiyi Sünik vilayətinə birgə səfər ediblər.

Onlar TRIPP-in imkanlarını müzakirə etmək üçün yerli özünüidarəetmə orqanlarının və icmaların nümayəndələri ilə görüşlər keçiriblər.

Göründüyü kimi, rəsmi Bakının sülh istiqamətində ortaya qoyduğu qətiyyətli mövqe, siyasi iradə və çevik diplomatiya sayəsində bir zamanlar xəyal kimi görünən Zəngəzur dəhlizi layihəsi artıq reallığa çevrilməkdədir.



Ceyhun Bayramov

# FOLKLEND MÜNAQİŞƏSİ YENİDƏN QIZIŞIR

Folklend məsələsi 44 ildən sonra yenidən diqqət mərkəzinə gəlib. Xüsusilə adaların ətrafında neft və qaz ehtiyatlarının işlənməsi məsələsi Buenos-Ayresin etirazlarına səbəb olub. ABŞ də Böyük Britaniyaya təzyiq məqsədilə prosesi alovlandırmaqda maraqlıdır.



AZƏR NURİYEV

Argentina ilə Böyük Britaniya arasında Folklend adaları uğrunda mübarizə yenidən gündəmə gəlib. Bu dəfə Argentina Prezidenti Xavyer Miley Böyük Britaniya ilə növbəti gərginliyə yol açan bəyanat səsləndirib. O, Folklend və ya Argentina üslubunda adlandırıldığı kimi, Malvin adalarının ölkəsinə məxsus olduğunu bəyan edib. Argentina lideri ümid edir ki, ABŞ bu mübarizədə onu dəstəkləyəcək. İddialara görə, Donald Tramp Böyük Britaniyanı İrana qarşı müharibədə kifayət qədər yardım göstərməməsinə görə "cəzalandırmaq" yolları axtarır və ölkəsinin mövqeyini yenidən nəzərdən keçirə biləcəyinə, Folklend üzərində Britaniya suverenliyinin tanınmasından imtina edə biləcəyinə eyham vurub.

Ehtimal edilir ki, Mileyi arxipelaqla ilə bağlı iddia irəli sürməyə Britaniya və İsrail şirkətlərinin adalardan təxminən 220 km məsafədə şelfdə neft hasilatına başlamaq planları təşviq edib. "Sea Lion" ("Dəniz şiri") adlanan birgə layihə 2028-ci ildə həyata keçirilmə mərhələsinə daxil olacaq. O zaman ehtiyatları 1,7 mlrd. barel olan neftin hasilatına başlanacaq.

### MÜNAQİŞƏNİN YENİDƏN GÜNDƏMƏ GƏLMƏSİNİN SƏBƏBLƏRİ

Beləliklə, Folklend məsələsi 44 ildən sonra enerji ehtiyatları və dəniz resursları ilə bağlı müzakirələr fonunda yenidən diqqət mərkəzinə gəlib. Xüsusilə adaların ətrafında neft və qaz ehtiyatlarının işlənməsi məsələsi Buenos-Ayresin etirazlarına səbəb olub. Mileyin ölkəsinin mövqeyini yenidən sərtləşdirməsi və adaların yaxınlığında neft hasilatı ilə məşğul olan şirkətlərə qarşı tədbirlərin gücləndiriləcəyini açıqlaması, Böyük Britaniyanın isə adalar üzərində suverenliyini və ada sakinlərinin öz müqəddəratını təyinetmə hüququnu müdafiə etdiyini bir daha bəyan etməsi göstərir ki, Folklend məsələsi siyasi gündəmdən tam çıxmayıb.




## "ODLU TORPAQ"DA HƏRBİ-DƏNİZ BAZASI

Miley deyib ki, parlamentə ölkə ərazisində onun hökumətinin icazəsi olmadan faydalı qazıntıların işlənməsi ilə məşğul olan xarici firmalara sərt sanksiyalar tətbiq edən qanun layihəsi təqdim edəcək. Prezidentin bəyanatı ölkədəki bütün siyasi partiyalar tərəfindən bəyənilib.

Trampın dəstəyi Miley üçün göydəndüşmə olub. Məlumat üçün bildirək ki, Argentina prezidentinin reytinqi sürətlə düşür. Argentinalıların demək olar ki, yarısı onun siyasətini bəyənmir. Ölkə sakinləri üçün aktual mövzuya müraciət etmək və xarici dəstəyi göstərmək fürsəti vətəndaşları Mileyin islahatlarının yaratdığı aşağı düşən yaşayış səviyyəsindən və iqtisadi problemlərdən yayındırmağa imkan verə bilər. Argentina prezidentinin əlinə oynayan həm də odur ki, hazırda söhbət suverenlik ideyasının müdafiəsindən və milli qürurun qorunmasından deyil, tamamilə real təhlükədən gedir: Argentinada Britaniyaya məxsus hesab edilməyən resursların "oğurlanması"ndan. Bundan əlavə, Miley Milli Təhlükəsizlik Şurasının formalaşdırılmasını və adalar səbəbindən yeni müharibə halında əsas rol oynaya biləcək "Odlu Torpaq"da hərbi-dəniz bazasının yaradılması planını elan edib.

### ARGENTİNA ƏLVERİŞLİ MƏQAMDAN YARARLANMAQ İSTƏYİR

"Miley başa düşür ki, məhz indi hərəkət etmək lazımdır. Üstəlik, Trampın Londonun siyasətindən narazılıq barədə bəyanatını nəzərə alsaq, bu an əlverişlidir", - deyə Argentina Prezident Administrasiyasının keçmiş yüksək vəzifəli məmuru Xuan Battalem bildirib.

Mileyin bəyanatı dərhal arxipelaq yaxınlığında neft hasil etmək niyyətində olan iki firmanın səhmlərinin qiymətinin düşməsinə səbəb olub. Buna baxmayaraq, onlar qanuni şəkildə rəsmiləşdirilmiş neft hasilatı lisenziyasına malik olduqlarını iddia edirlər. Böyük Britaniya müdafiə naziri Ues Stritinq isə qəti şəkildə bəyan edib ki, Folklend Britaniya torpağıdır. 2013-cü ildə referendum keçirilib, adaların sakinləri (1672 nəfərdən 1517-si) Britaniya xarici ərazisi statusunu saxlanması lehinə səs veriblər.


Ues Stritinq
Xavyer Miley

## TARİXİ VƏ SİYASİ QARŞIDURMANIN SİMVOLU

Göründüyü kimi, iki ölkənin mövqeləri bir-birinə uyğun gəlmir. Argentina Konstitusiyasına görə, Malvinlər Argentina ərazisidir. Miley, gələn il ölkədə prezident seçkilərinin keçiriləcəyini nəzərə alaraq, amerikayönümlü xarici siyasi kursuna baxmayaraq, millətçi əhval-ruhiyyəyə oynamaq qərarına gəlib. Adaların qaytarılması çağırışları yalnız televiziya debatları və parlament iclasları zamanı deyil, həm də futbol yarışları zamanı səslənir. Belə bir nümayişi ölkə yığma komandasının üzvləri son dünya futbol çempionatında İngiltərə yığması ilə matçdan sonra təşkil etdilər. Lakin hətta sol baxışlara malik Argentina siyasətçiləri belə mübahisənin güc yolu ilə həllinə çağırışlardan çəkinirlər.

Qeyd edək ki, Argentina-Britaniya münaqişəsi XX əsrin ən diqqətçəkən regional hərbi qarşıdurmalarından biri kimi tarixə düşüb. Argentina bu gün də adaları öz ərazisi hesab edir, Böyük Britaniya isə suverenliyini və ada sakinlərinin seçimini müdafiə edir. Buna görə Folklend münaqişəsi yalnız keçmişdə baş vermiş müharibə deyil, həm də beynəlxalq hüquq, ərazi bütövlüyü, suverenlik və xalqların öz müqəddəratını təyinetmə prinsiplərinin kəsişdiyi mürəkkəb geosiyasi problemdir. Məhz buna görə Cənubi Atlantikadakı bu kiçik adalar Argentina ilə Böyük Britaniya arasında böyük tarixi və siyasi qarşıdurmanın simvoluna çevrilib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# SUBSİDİYA SİSTEMİNDƏ YENİ DÖVR

**Kənd təsərrüfatında subsidiya siyasəti yenilənir. Yeni mexanizmlə texnologiya tətbiq edən fermerlərə daha yüksək dəstək veriləcək, subsidiya verilən istiqamətlər genişləndiriləcək.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2027-ci ildən kənd təsərrüfatı üzrə subsidiya siyasətində yeni mərhələ başlayır. Aqrar Subsidiya Şurasının təsdiqlədiyi yeni mexanizmlə dövlət dəstəyinin həm istiqamətləri, həm də əhatə dairəsi genişləndirilir. Daha məhsuldar və texnoloji istehsala üstünlük verilir. Müasir suvarma və lazer hamarlama texnologiyalarından istifadə edən, sertifikatlı toxum tətbiq edən fermerlər üçün daha yüksək subsidiyalar nəzərdə tutulur. İstixanalar, ixracyönümlü bitkilər və emal sənayesi üçün istehsal olunan məhsullar da əlavə dəstək alacaq. Yeni mexanizmin əhatə dairəsi bununla məhdudlaşmır. Süd, balıqçılıq, yumurta, atçılıq və intensiv heyvandarlıq kimi sahələr üzrə ayrıca subsidiya mexanizmləri tətbiq ediləcək. Eyni zamanda, müəyyən meyarlara cavab verən təsərrüfatlara əkin subsidiyasının 30 faizinin əvvəlcədən ödənilməsi nəzərdə tutulur.

### DAHA KEYFİYYƏTLİ VƏ NƏTİCƏYÖNÜMLÜ MƏRHƏLƏ

Millət vəkili Azər Badamov hesab edir ki, yeni mexanizmi aqrar siyasətdə daha keyfiyyətli və nəticəyönümlü mərhələyə keçid kimi qiymətləndirmək olar: "Burada əsas məsələ təkcə subsidiyaların məbləğinin artırılması deyil, dövlət dəstəyinin məhsuldarlığın yüksəldilməsinə, müasir texnologiyaların tətbiqinə yönəldilməsidir. Məsələn, buğda istehsalında lazer hamarlama suvarmanın daha səmərəli təşkilinə, su itkilərinin azalmasına və məhsuldarlığın yüksəlməsinə imkan verir. İstixanaların, ixracyönümlü bitkilərin və emal sənayesi üçün istehsal olunan məhsulların əlavə dəstəklənməsi aqrar sektorun yalnız xammal istehsal edən sahə kimi deyil, daha yüksək əlavə dəyər yaradan sektor kimi inkişafına şərait yarada bilər".

### "HƏR HEKTARDAN KEYFİYYƏTLİ MƏHSUL ƏLDƏ OLUNMALIDIR"

Millət vəkilinin sözlərinə görə, yeni subsidiya siyasətində əsas yanaşma fermeri daha səmərəli və müasir üsullarla istehsala yönəltməkdir: "Bu yanaşma uzunmüddətli perspektivdə aqrar sektorda struktur dəyişikliklərinə səbəb ola bilər. Real dönüş üçün əsas şərtlərdən biri məhsuldarlığın artırılmasıdır. Bunun üçün yalnız əkin sahələrinin genişləndirilməsi kifayət etmir. Mövcud torpaq və su resurslarından daha səmərəli istifadə etməklə hər hektardan daha çox və keyfiyyətli məhsul əldə olunmalıdır. Müasir texnologiyaların tətbiqi bu baxımdan mühüm rol oynayır. Ənənəvi üsullarla becərilən təsərrüfatlarda taxılın məhsuldarlığı 15-25 sentner səviyyəsində olduğu halda, innovativ texnologiyalardan istifadə edən bəzi təsərrüfatlarda bu göstəricini 60 sentnerə qədər yüksəltmək mümkündür".



## "AVANS MEXANİZMİ BÜTÜN KİÇİK FERMERLƏRİ ƏHATƏ ETMİR"

E.Əkbərov hesab edir ki, yeni mexanizmin real dönüş yaratmaq potensialı var, lakin subsidiya aqrar sektorun bütün problemlərini təkbaşına həll edə bilməz: "Torpaqların parçalanması, su təminatı, maliyyəyə çıxış, texniki bilik və aqrar məsləhət xidmətlərinin yetərli olmaması, eləcə də emal imkanlarının məhdudluğu kimi məsələlər də paralel şəkildə həllini tapmalıdır. İslahatın effektivliyini qiymətləndirərkən subsidiya alan təsərrüfatlarda məhsuldarlığın artması, məhsul vahidinə sərf olunan suyun azalması, emala yönəldilən məhsulun həcminin yüksəlməsi və əlavə dəyərli məhsulların ixracının genişlənməsi kimi göstəricilər əsas götürülə bilər".



Azər Badamov

İqtisadçının fikrincə, subsidiyanın 30 faizinin əvvəlcədən ödənilməsi də bu baxımdan diqqətçəkən məqamdır: "Avans mexanizmi bütün kiçik fermerləri əhatə etmir. Hazırda açıqlanan qaydalara əsasən, 5-100 hektar əkin sahəsi olan, müəyyən edilmiş birillik yazlıq və ya payızlıq bitkiləri becərən və fermer reytinqi 30-dan yuxarı olan təsərrüfatlar bu imkandan yararlana bilər. Bu isə 5 hektardan az əkin sahəsi olan təsərrüfatların mexanizmdən kənarda qalması deməkdir".



Elçin Əkbərov

## YÜKSƏK MƏHSULDARLIQ, AŞAĞI MAYA DƏYƏRİ

A.Badamov bildirdi ki, subsidiya mexanizminin təsirini artırmaq üçün fermerlərin bilik və bacarıqları da gücləndirilməli, aqrar məsləhət xidmətləri inkişaf etdirilməli və texnologiyalara çıxış imkanları genişləndirilməlidir: "Dövlət dəstəyi fermerin istehsal xərclərinin bir hissəsini kompensasiya etməklə maya dəyərinin azalmasına və gəlirliliyin yüksəlməsinə imkan verir. Gəlirlərin artması isə fermerin növbəti istehsal mövsümünə daha çox vəsait yatırmasına şərait yarada bilər. Beləliklə, daha keyfiyyətli toxum, müasir suvarma sistemi və texnikaya investisiya imkanları genişlənir. Əkin subsidiyasının 30 faizinin əvvəlcədən ödənilməsi də bu baxımdan mühüm addımdır. Fermer gəliri məhsulu satdıqdan sonra əldə etsə də, toxum, gübrə, yanacaq, texnika və suvarma kimi əsas xərcləri əkin dövründə qarşılamalıdır. Subsidiyanın bir hissəsinin əvvəlcədən ödənilməsi fermerə müəyyən qədər dövriyyə vəsaiti qazandıraraq əkin prosesinə daha rahat başlamasına imkan verə bilər. Mexanizmin səmərəli işləməsi üçün tətbiq qaydalarının sadə və şəffaf olması vacibdir. Kiçik təsərrüfatların dəstəkdən yararlanması üçün həddindən artıq mürəkkəb tələblərin müəyyənləşdirilməsi gözlənilən effekti zəiflədə bilər".

### "AQRAR İSTEHSALIN DİVERSİFİKASİYASINA İMKAN YARADIR"

İqtisadçı Elçin Əkbərov isə düşünür ki, yeni mexanizmin diqqətçəkən tərəflərindən biri dövlət dəstəyinin konkret istehsal davranışları ilə əlaqələndirilməsidir: "Bundan sonra fermerin hansı texnologiyadan istifadə etməsi və istehsal prosesinin rəsmi şəkildə sənədləşdirilməsi daha çox əhəmiyyət daşıyacaq. Məsələn, 22 ixtisaslaşmış rayonda müasir suvarma ilə becərilən buğdaya hektara 400 manat, ənənəvi suvarma və ya dəmyə üsulu ilə becərilən buğdaya isə hektara 200 manat subsidiya nəzərdə tutulması texnoloji yenilənmənin maliyyə baxımından daha çox təşviq edildiyini göstərir. Kartof və tərəvəz üzrə müasir suvarmadan istifadə edən təsərrüfatlara daha yüksək dəstəyin verilməsi də istehsalçıların texnologiyaya keçidini sürətləndirə bilər. Eyni zamanda, yeni subsidiya istiqamətlərinin heyvandarlıq və akvakultura sahələrini əhatə etməsi aqrar istehsalın diversifikasiyasına imkan yaradır".

# İCTİMAİ NƏQLİYYATDA YENİ DÖNƏM BAŞLAYIR

Bakıda ictimai nəqliyyatda “Brutto müqavilə” modelinin tətbiqinə başlanılır. Yeni yanaşma daşıyıcıların gəlir əldə etmə prinsipini dəyişməklə yanaşı, ictimai nəqliyyatda xidmətin təşkilinə münasibətin də yenilənməsini nəzərdə tutur.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

İctimai nəqliyyatda illərdir müzakirə olunan əsas məsələlərdən biri avtobusların hərəkət qrafikinin sabitliyi, xidmət keyfiyyəti və xüsusilə sərnişin axınının az olduğu saatlarda marşrutların fəaliyyətinin davamlılığıdır. Bu istiqamətdə Azərbaycanda yeni mərhələnin əsası qoyulub - “Brutto müqavilə” modelinin tətbiqinə başlanılıb.

Yeni yanaşma daşıyıcıların gəlir əldə etmə prinsipini dəyişməklə yanaşı, ictimai nəqliyyatda xidmətin təşkilinə münasibətin də yenilənməsini nəzərdə tutur. İlk mərhələdə beş müntəzəm marşrutun bu sistemə qoşulması isə yeni modelin praktiki tətbiqinin başlanğıcı sayılır.

“Brutto müqavilə” modelinin tətbiqindən sonra sərnişinlərin gündəlik həyatında konkret olaraq hansı dəyişikliklərin baş verməsi gözlənilir?

### DAŞIYICI GÖSTƏRDİYİ XİDMƏTƏ UYĞUN SUBSİDİYA ALACAQ

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilir ki, bu model dövlət tərəfindən daşıyıcılara subsidiyanın ayrılmasını nəzərdə tutur. Bununla da daşıyıcılar hər qət etdiyi kilometrə görə ödəniş alacaqlar və qarşılaşdıqları zərər kompensasiya olunacaq: “Nəticədə, daşıyıcıların yalnız gəlirli marşrutlara üstünlük verməsinin qarşısı alınacaq və şəhərətrafı, azrentabelli, gec saatlaradək çalışan marşrutlarda da xidmət səviyyəsinin yüksəldilməsinə şərait yaranacaq. Sərnişinlər isə xidmət keyfiyyətinin, müasir avtobusların sayının artmasını, intervalların azalmasını, daha gec saatlaradək xidmətin aparılmasını və uzaq məsafələrə hərəkət etməsini müşahidə edəcəklər”. Sərnişinlərin məsafəyə görə pul ödəmələrinə gəlincə, qurumdan bildirildi ki, bu konkret bir rəqəm olmadığından daşıyıcıya ödəniləcək məbləğ əvvəlcədən müəyyən edilmədiyindən, Nazirlər Kabinetinin 250 nömrəli qərarı ilə təsdiq edilmiş qaydaya uyğun olaraq hesablanır və ödənilir: “Daşıyıcıların göstərdiyi xidmətin keyfiyyəti hərəkət qrafikinə və intervala riayət olunması, marşrut üzrə nəzərdə tutulan məsafənin qət edilməsi, marşrutda tələb olunan avtobus sayının təmin edilməsi, xidmətin müntəzəmliyi və əlçatanlığı, müqavilə üzrə müəyyən edilmiş digər tələblərin yerinə yetirilməsi ilə ölçüləcək. Avtobusun gecikməsi, intervalın pozulması, reysin yerinə yetirilməməsi və digər bu kimi hallarda müqavilədə nəzərdə tutulmuş maliyyə və digər təsir mexanizmləri tətbiq ediləcək. Daşıyıcı faktiki olaraq göstərmədiyi və ya müqavilədə müəyyən edilmiş keyfiyyət tələblərinə cavab verməyən xidmətə görə ödəniş əldə edə bilməyəcək”.

### AVTOBUSDA BİR SƏRNİŞİN OLSA DA HƏRƏKƏT EDİLƏCƏK

Nəqliyyat eksperti Rauf Ağamirzəyev bütün aparıcı dünya şəhərlərinin artıq bu modelə keçdiyini bildirir: “Bizim gördüyümüz marşrut şəbəkəsinin heç də hamısının doluluq faizi eyni olmur. Rentabellik baxımından bəzən bir marşrut həddən artıq çox yüklüdür, digər marşrutun yüklülük faizi isə aşağıdır. Daşıyıcılar onların müsabiqələrində iştirak etməyə, mövcud marşrut şəbəkəsini yeniləməyə o qədər də həvəsli olmurlar. “Brutto müqavilə” modeli bu problemləri həll edəcək. Daşıyıcılar artıq hər kilometrə görə subsidiya əldə edəcəkləri üçün bu məsafələri yığmaqdan ötrü gecə saatlarına kimi hərəkət etməyə özləri maraqlı olacaqlar. Bu modelə əsasən, hətta avtobusda bir sərnişin olsa belə məsafə gedilməlidir. Bu halda ən rentabelsiz marşrutlar da ictimai vacibliyi nəzərə alınaraq fəaliyyət göstərəcəklər. Beləliklə də mobillik tamlığı ilə təmin olunacaq”.




Foto: Arif Quluzadə/Global Photostock

## GÜNLÜK, HƏFTƏLİK, AYLIQ BİLET PAKETLƏRİ

Ekspert bu keçidin zamanla baş verəcəyini bildirir: “Yeni sistem daşıyıcıların maliyyə dayanıqlığını təmin edəcək, xidmət keyfiyyətini artıracaq. Vətəndaşlar üçün əsas odur ki, ictimai nəqliyyat qoyulan qrafiklə fəaliyyət göstərsin. İctimai nəqliyyatın fasiləsizliyi təmin olunduqdan sonra vətəndaşların maliyyə xərcləri optimallaşacaq. Taksiyə, fərdi nəqliyyata üz tutmaqdansa ictimai nəqliyyatla hərəkət edəcəklər”. R.Ağamirzəyevin sözlərinə görə sərnişinlər üçün digər bir üstünlük günlük, həftəlik, aylıq bilet paketləri, 90 dəqiqəlik pulsuz keçidlər, tələbələr üçün güzəştli bilet təklifləri olacaq.

“Brutto müqavilə”dən sonra onların xərcləri xeyli optimallaşacaq. 90 dəqiqəlik bilet almaqla, bir neçə nəqliyyat dəyişməklə pulsuz keçidləri təmin olunacaq”. Ekspert bildirir ki, bu model təkcə Bakını deyil, regionları da əhatə edəcək: “Gəncə şəhərində, Naxçıvanda, Qarabağın şəhərlərində avtobus parkları yenilənib. Növbəti mərhələdə Şəki, Lənkəran, Qəbələ, Sumqayıt kimi şəhərlərdə də avtobus parkları yeniləcək və bu modellə də daha dayanıqlı fəaliyyət göstərəcək”.



Rauf Ağamirzəyev

## “BÜTÜN PROBLEMLƏRİ ARADAN QALDIRACAĞINI GÖZLƏMƏK DÜZGÜN DEYİL”

İqtisadçı Rəşad Həsənov da hesab edir ki, “Brutto müqavilə” modelinin tətbiqi ictimai nəqliyyatda xidmət keyfiyyətinin yüksəldilməsinə töhfə verə bilər, lakin bu modelin bütün problemləri aradan qaldıracağını gözləmək düzgün deyil: “Yeni model xüsusilə avtobusların hərəkət intensivliyinin artırılması, intervalların azalması, daşıyıcıların müəyyən keyfiyyət standartlarına əməl etməsi və yeni nəqliyyat vasitələrinin alınması kimi məsələlərdə müsbət nəticələr verə bilər. Lakin ictimai nəqliyyatdakı mövcud problemlərin heç də hamısı daşıyıcıların fəaliyyətindən irəli gəlmir”.

Ekspert vurğulayır ki, avtobuslarla yanaşı, metro və dəmir yolu nəqliyyatında da əsas iştirakçı dövlətdir. Buna görə də ictimai nəqliyyatda xidmət keyfiyyətinin yüksəldilməsi yalnız özəl daşıyıcılara tətbiq olunan yeni mexanizmlərlə məhdudlaşmamalı, dövlətin idarə etdiyi nəqliyyat sahələrində də səmərəlilik və xidmət keyfiyyəti artırılmalıdır: “Nəqliyyat infrastrukturunun, yolların və hərəkətin təşkilinin vəziyyəti də daşıyıcının birbaşa təsir imkanları xaricindədir. Bu amillər ictimai nəqliyyatın sürətinə, intervalına və sərnişinlərin yolda keçirdiyi vaxta birbaşa təsir göstərir”.



Rəşad Həsənov

# NAĞDLAŞMA ARTACAQ, YOXSA ŞƏFFAFLIQ?



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Kartdan-karta pul köçürmələrinə tətbiq olunan limitlə bağlı ciddi fikir ayrılıqları hələ də qalır. Bəziləri yeni qaydaların nağd vəsaitə yönəlmə meylini artıracağını, digərləri isə elə bir ciddi dəyişiklik yaşanmayacağını iddia edir.**

Ötən aydan etibarən ölkədə bank kartları vasitəsilə həyata keçirilən kartdan-karta (C2C) pul köçürmələrinə yeni limitlərin tətbiqinə başlanılıb. Bu addım cəmiyyətdə və biznes mühitində geniş müzakirələrə səbəb olub. Bir tərəf bu qərarın əhalini yenidən nağd pul dövriyyəsinə qaytaracağını düşünsə də, digər tərəf tənzimləmənin maliyyə şəffaflığını artıracağını bildirir.

Maraqlıdır, tətbiq olunan limitlər nağdsız ödənişlərə necə təsir edir?

### "BU, SIRAVİ VƏTƏNDAŞLAR ÜÇÜN NARAHATLIQ YARATMAMALIDIR"

Bank eksperti Emin Kərimov deyir ki, tətbiq olunan limitlər kartdan-karta əməliyyatlarından qeyri-kommersiya məqsədilə istifadə edən sıravi vətəndaşlar üçün heç bir narahatlıq yaratmamalıdır. Çünki bu qərarın əsas hədəfi C2C köçürmələrindən vergidən yayınmaq və kommersiya məqsədilə istifadə edənlərin qarşısını almaqdır: "Məhəllə marketləri, kiçik sahibkarlar, daşıma şirkətləri və ya kuryer vasitəsilə məhsul satanlar ödənişi POS-terminal əvəzinə kartdan-karta tələb edirdilər. Müştəri terminal istədikdə müxtəlif bəhanələr gətirərək ödənişi şəxsi kartlarına köçürtdürürdülər. Bu isə qeyri-qanuni əməliyyat idi. Çünki POS-terminaldan keçməyən istənilən əməliyyat, yəni şəxsi karta köçürülən bütün əməliyyatlar rəsmi dövriyyədən gizlədilir və vergidən yayınmaya səbəb olurdu. Bu baxımdan, tətbiq edilən limitləri təqdirəlayiq hesab edirəm. Çünki bu qərar birinci növbədə vergidən yayınma hallarının qarşısını alacaq, ikinci növbədə, real dövriyyələri üzə çıxararaq vergitutmanı daha şəffaf edəcək və sahibkarların dövriyyələri "ağardıqca" onların bank güzəştlərindən və dövlət dəstəyindən istifadə imkanlarını artıracaq".



Emin Kərimov





## "Nağd pula tələbatı artırmayacaq"

E.Kərimov bildirir ki, sosial şəbəkələrdə bu qərarın nağdlaşdırmanı idarəolunmaz edəcəyi və bankomatlar qarşısında növbələr yaradacağı ilə bağlı müzakirələr gedir. Bu iddialar əsassızdır: "Limitlər gündəlik adət etdiyimiz qeyri-kommersiya köçürmələrinə təsir etmir. Orta statistik vətəndaşın gün ərzində etdiyi 3-5 köçürmə üçün bu limitlər tamamilə kifayətdir. Bu addım nağd pula tələbatı artırmayacaq, sadəcə kölgə iqtisadiyyatının qarşısını alaraq rəqəmsal ödənişləri daha şəffaf müstəviyə keçirəcək. Hazırda nağd pulun geniş dövriyyəyə qayıtması real görünmür. Çünki istər qlobal iqtisadiyyatda, istərsə də ölkə iqtisadiyyatında rəqəmsallaşma çox sürətlə inkişaf edir. Müasir maliyyə alətlərinin tətbiqini etdiyi rahatlıq insanları nağd ödənişlərdən getdikcə uzaqlaşdırır. Artıq heç kim soyuq qış günlərində və ya yay istisində bankomat qarşısında növbə gözləyib pul nağdlaşdırmaq həvəsində deyil. İnsanlar evdə oturaraq köçürmələri bir neçə saniyəyə həyata keçirə bilirlərsə, eyni zamanda "ƏDV geri al" kimi stimullaşdırıcı layihələrdən faydalanmaq istəyirlərsə, təbii ki, elektron ödənişlərə üstünlük verəcəklər. Əlbəttə, müəyyən regionlarda məsələn, POS-terminalların zəif inkişaf etdiyi kənd ərazilərində və ya elektrik enerjisinin kəsintiləri səbəbindən şəbəkənin zəif işlədiyi yerlərdə nağd pula tələbat hələ də qala bilər. Lakin bazarın ümumi tendensiyası göstərir ki, yaxın gələcəkdə nağd pula olan tələbat azalacaq".



İsmayıl Məmmədov

## "Qərarın mənfi tərəfi yoxdur"

Mütəxəssis bildirir ki, ilk baxışda bu proses sadəcə bir limit tətbiqi kimi görünə bilər. Lakin dərindən təhlil etdikdə, bu qərarın arxasında böyük və müsbət iqtisadi proseslərin dayandığını görürük: "Əlbəttə, istənilən iqtisadi dəyişiklik ilk vaxtlarda cəmiyyətin bir qismi tərəfindən narazılıqla və ya neqativ qarşılana bilər. İnsanlar qərarın əsl mahiyyətini və təsir dairəsini tam dərk etmədən müxtəlif şayiələr yaya bilərlər. Lakin məsələni dərindən təhlil edənlər anlayırlar ki, bu, mütərəqqi texnologiyaları və fikirləri özündə birləşdirən bir qərardır. Qərarın ölkə iqtisadiyyatına xeyri maksimum dərəcədə çoxdur, mənfi tərəfləri isə demək olar ki, yox dərəcəsindədir".

Bank eksperti İsmayıl Məmmədov deyir ki, davranış iqtisadiyyatındakı "status-kvo meyli" prinsipinə əsasən, insanlar vərdiş etdikləri ödəniş üsulunu dəyişməkdə çətinlik çəkirlər. Lakin C2C məhdudiyyətləri kimi tənzimləyici müdaxilələr bu meyli qırmaq üçün güclü xarici şok yaratdı: "Artıq bir dəfə rəqəmsal ödənişin rahatlığını yaşayan istehlakçı geri qayıtmır. Bunu "endowment effect" yəni əldə edilən rahatlığın itirilməsinə qarşı müqavimət gücləndirir". Ekspert bildirir ki, Azərbaycanda əmək qabiliyyətli əhalinin 45%-i 35 yaşdan aşağıdır və smartfonla böyüyən bu qrup rəqəmsal ödənişlərə uyğunlaşmaqda çətinlik çəkmir: "Hazırda QR ödənişlər nağdsız dövriyyənin cəmi 8-10%-ini təşkil etsə də, Azərbaycan Mərkəzi Bankının vahid standart tətbiq etməsi, smartfonların yayılma səviyyəsinin 82%-ə çatması və bankların QR kampaniyaları sayəsində 2027-ci ilə qədər bu payın 18-22%-ə yüksələcəyi proqnozlaşdırılır. C2C limitləri sayəsində rəsmi dövriyyəyə keçən bizneslərin maliyyə hesabatları şəffaflaşır, bankların real dövriyyəni görməsi ilə risk qiymətləndirməsi dəqiqləşir və korporativ kredit portfelində problemli kreditlərin payı (NPL) enir".

### "İQTİSADİ DAVRANIŞIN TƏKAMÜLÜ"

İ.Məmmədov vurğulayır ki, nağdsız ödənişlərin artması bankların likvidlik mövqeyini yaxşılaşdırır və pul kütləsinin bank sistemində qalma müddətini uzadır: "Əvvəllər işçi maaşını alıb dərhal bankomatdan nağdlaşdırırdısa, indi vəsait kart hesabında qalır, bank üçün qısamüddətli kredit resursuna çevrilir. Banklarda likvidliyin artması kredit resurslarını çoxaldır və rəqabət hesabına hazırda 17-19% olan istehlak kreditləri faizlərinin 2027-ci ilə qədər 15-16%-ə enməsini reallaşdırır. Nəticədə, bu proses ölkə iqtisadiyyatı üçün multiplikativ effekt yaradır. Hətta vergi daxilolmalarındakı artımın 6-7 faiz bəndi birbaşa nağdsızlaşmanın payına düşür. C2C məhdudiyyətləri ilə başlayan bu keçid yalnız texnoloji dəyişiklik deyil, kölgə iqtisadiyyatının daralması və iqtisadi davranışın təkamülüdür".

# ƏLVİDA, BÖYÜK USTAD!




**Xalq artisti Aleksandr Şarovski səhnədən və bu dünyadan getdi. Tamaşaçıları, həmkarları onu son dəfə alqışlarla yola saldılar. Onun səsi, rolları, tamaşaları və teatr sevgisi isə əbədilik qaldı.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Xalq artisti Aleksandr Şarovski ilə illər əvvəl - Rus Dram Teatrının 90 illik yubileyi ərəfəsində görüşmüşdüm. Öz tamaşaçısı, zalı həmişə dolu, zövqlü repertuarı olan bir teatra rəhbərlik edirdi. O teatra ayaq qoyan kimi fərqli ab-hava diqqətdən qaçmır. Əlbəttə, bu atmosferi yaratmaq teatr rəhbərliyindən çox asılıdır.

### BUNDAN MƏNALI VİDA YERİ OLA BİLMƏZDİ

Sentyabrın 9-da Aleksandr Şarovski uzun sürən xəstəlikdən sonra, 78 yaşında dünyasını dəyişdi. Ömrünün çox hissəsini həsr etdiyi, 50-dən çox rol oynadığı, 50-dən artıq tamaşaya quruluş verdiyi doğma teatrın səhnəsində onunla vida mərasimi keçirildi. Bəlkə də bir sənətkar üçün bundan daha mənalı vida yeri ola bilməz...

Şarovski 2-ci Fəxri Xiyabanda dəfn olundu.

Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyeva böyük aktyorun ölümündən kədərlənərək özünün "x" sosial media hesabında "Aleksandr Yakovleviç Şarovski. Məkanın cənnət olsun, böyük Ustad!" deyə paylaşım edib. "Ustad" sözü isə təsadüfi deyil. Çünki Şarovski yalnız səhnəyə çıxan aktyor və tamaşaya quruluş verən rejissor deyildi. O, teatrın içində yaşayan, onun nəfəsini hiss edən, aktyorun qəlbinə toxunmağı bacaran, tamaşaçısını duyğulandıran sənət adamı idi: "Mən hər bir tamaşaya ilk tamaşam kimi yanaşıram. Əgər o pyesi özüm sevmirəmsə, onu hazırlamıram. Bu, azartlı oyun kimidir. Əgər həvəs yoxdursa, yaxşısı budur tamaşanı qoyma. Tamaşa təkcə bu günün tələbi ilə yox, həmçinin qəlbin tələbi ilə səslənməlidir. Əgər mənim qəlbimin seçdiyi bir əsər tamaşaçıların istəyi ilə üst-üstə düşürsə, demək o alınıb. Teatr siyasət deyil. Həyatın tələbi tamam başqadır. Əsas ürəyin, qəlbin tələbatıdır, emosiyalardır..."- deyirdi böyük aktyor və rejissor.

### TEATR ONUN HƏYATI İDİ

A.Şarovski qəzetimizə müsahibəyə də "kapriz"siz razı olmuşdu. Şirin-şirin Azərbaycan dilində danışması vardı. Aktyor, rejissor, nəhayət teatrın baş rejissoru kimi keçdiyi həyat yolundan, teatrın fəaliyyətindən, gələcək planlarından və arzularından danışmışdı. Mehriban, gülümsər üzü, suallara səbrlə, nəzakətlə verdiyi cavablar indiyə kimi yadımdadır.



Şarovski üçün teatr sadəcə iş yeri deyildi. Bu, onun həyatı idi. Ona görə də təmirdən sonra səhnədə baş verən dəyişikliklərdən danışarkən səsində xüsusi bir sevinc duyulurdu: "Prezident İlham Əliyev həyat yoldaşı Mehriban xanımla teatrın təmirdən sonrakı açılışında iştirak etdi. Prezident həmin tədbirdə mənə "Şöhrət" ordeni təqdim etdi. Hesab edirəm ki, bu mükafat təkcə mənim yox, bütün kollektivin əməyinə verilən qiymətdir. Prezident qeyd elədi ki, Rus Dram Teatrının Azərbaycan teatrının və mədəniyyətinin bir hissəsi kimi həmişə öz yeri olub və olacaq. İstənilən artıq dil bir dövlətdir. İstər Azərbaycan, istər rus, istərsə də ingilis dilini bilmək insanların mədəni səviyyəsinin yüksəlməsinə xidmət edir. Prezidentin bu fikirləri bizi ilhamlandırdı. Biz də işimizi bu istiqamətdə qururuq".

Baş rejissor kimi təmirdən sonra teatrın səhnəsində baş verən keyfiyyət dəyişikliklərinə də toxundu: "Səhnəmizdə daha müasir tərtibat var. Biz teatra bu sənəti ürəkdən sevən, xüsusilə gənc nəsillə işləməyi bacaran rejissorları dəvət edirik.

Mən bunu öz işimizə yeni baxış kimi qiymətləndirirəm. Biz təkcə rejissorları yox, həmçinin gənc istedadlı aktyorları da, rəssamları da dəvət edirik.

### TEATRIN BÜTÜN KOLLEKTİVİNİ SEVİRDİ

Şarovskini teatrın bütün kollektivini sevirdi. Asılqanda çalışan işçidən tutmuş aktyorlara, səhnə işçilərinə qədər... Küçədə də hamı ilə görüşüb salamlaşırdı. Bakıda doğulub böyüdüyündən onu hamı yaxşı tanıyırdı. Şarovskiyə ümumiyyətlə köhnə bakılı kimi hörmət edirdilər.

Teatrı amiranəliklə yox, duymaqla idarə edirdi. Bəlkə də rəhbərlik etdiyi teatrın ab-havasının sirri də elə bu həssaslıqda idi: "Məni teatrda çox adam qınayır ki, hədsiz yumşaq adamam. Mən yumşaq adam deyiləm, sadəcə aktyorların təbiətini bilirəm. Özüm də artistəm. Onlarla ehtiyatlı olmaq lazımdır. Çünki onların qəlbində teatrdan başqa heç nə yoxdur. Əgər o istedadlıdırsa, onu başa düşmək asandır. Rejissor qışqırmalıdırmı? Bu, ola bilməz. Aktyor isə yaxşı mənada aqressiv olmalıdır. Çünki səhnə cəsarət tələb edir. Əgər zalda oturanlar aktyora inanmasalar çıxıb gedəcəklər. Aktyorun istedadı bu istiqamətə yönəlməlidir. Mənə elə gəlir ki, rejissorda o zaman aqressivlik yaranır ki, onun üçün artıq heç nə qalmır. Rejissor tamaşanı bilməli, səhnə nizamlarına bələd olmalı, temporitmi dəqiq tutmalı, yeni aktyorların xarakterini tapmaqda kömək etməli və ab-havanı yaratmağı bacarmalıdır". Şarovski bütün yaradıcılığı boyu bu prinsiplərinə sadiq qalmağı bacardı.

## "Bizim səhnədə hər şey qaydasındadır"

İndi rejissorun bu cümləsini xatırlamaq kədərlidir. Ölümündən sonra haqqında çox söz yazılacaq. Aktyor kimi oynadığı rollar, quruluş verdiyi tamaşalar, aldığı fəxri adlar və mükafatlar sadalanacaq, teatr tarixindəki xidmətlərindən danışılacaq. Şarovskini yaddaşlarda saxlayan həm də teatra inamı və sevgisi olacaq: "Mən nə istəyirəmsə, onu oynamışam. Obrazlar qalereyamda çox gözəl rollar var. Bu baxımdan reallaşmayan arzum qalmayıb. Mən həmişə öz işimi sevmişəm. Heç vaxt teatra xəyanət etməmişəm..."

Şarovski səhnədən getdi. Tamaşaçıları, həmkarları onu son dəfə alqışlarla yola saldılar. Aktyorun səsi, rolları, tamaşaları və teatr sevgisi isə əbədilik qaldı. "Bizim səhnədə hər şey qaydasındadır",- deyən böyük sənətkar üçün ən uzun ömür elə budur: cismən getsə də, yaddaşlarda və tarixdə qalmaq...

Məkanın cənnət olsun, böyük sənətkar!

# BAKIDA FAYDALI İQLİM MÜZAKİRƏLƏRİ


**Fotolar:** Tapdıq Abdullayev /Global Media Group

**Ceyhun Bayramov: "Dünyada hazırda sürətli ekoloji dəyişikliklər baş verir. Bu dünyanın hər bir yerində, o cümlədən regionumuzda baş verir. Bunun ən bariz nümunəsi Xəzər dənizidir".**

Bakıda Azərbaycanın ev sahibliyi və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Dördüncü İqlim Həftəsi (CW4) keçirilib. İqlim həftəsi çərçivəsində bir çox aktual mövzulara bağlı müzakirələr aparılıb, görüşlər keçirilib.

### "AZƏRBAYCAN İQLİM MÜZAKİRƏLƏRİNİ APARMAQDA QƏTİYYƏTLİDİR"

Açılış mərasimində çıxış edən Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, dünyada hazırda sürətli ekoloji dəyişikliklər baş verir: "Bu, dünyanın hər bir yerində, o cümlədən regionumuzda baş verir. Bunun ən bariz nümunəsi Xəzər dənizidir. Bulvarın bəlli ərazilərində Xəzər dənizindəki azalmaları aşkar görmək mümkündür, bütün bunlar iqlim dəyişikliyinin göstəricidir".

Nazir bildirib ki, iqlim dəyişikliyi fonunda baş verənlərlə bağlı iqtisadi sabitlik və davamlılıq öz aktuallığını artırır: "Düşünürəm ki, Bakı İqlim Həftəsi bu kontekstdə ciddi müzakirə platformasıdır".

C.Bayramov əlavə edib ki, Azərbaycan iqlim müzakirələrini davamlı olaraq aparmaqda qətiyyətlidir. Azərbaycanın iqlim məsələlərindəki mövqeyinə sadiqliyini vurğulayan nazir bu kontekstdə Bakıda keçirilən COP29-un uğurunu xatırladıb: "Biz hazırda Türkiyə və digər ölkələrdən həmkarlarımızla aktiv fəaliyyət göstəririk. Bu gün də iqlim mütəxəssisləri Bakıdadır, məqsəd yenə də eynidir. Sözsüz, COP31-ə qədər bu dinamikanı qorumaq prioritet məsələdir. Azərbaycan qardaş Türkiyəyə COP31-də lazımi dəstəyi davam etdirəcək. Düşünürük ki, COP31 iqlim məsələlərinin həlli üçün mühüm platformaya çevriləcək".

### BAKI BEYNƏLXALQ İQLİM ƏMƏKDAŞLIĞININ ƏHƏMİYYƏTİ

UNFCCC-nin icraçı katibi Saymon Stilin fikirləri də maraqlıdır. Onun sözlərinə görə, Bakı beynəlxalq iqlim əməkdaşlığının ən yeni tarixində son dərəcə mühüm yer tutur. S.Stil bildirib ki, təmiz enerjiyə geridönüşü olmayan keçidə baxmayaraq, iqlim dəyişikliyinin fəsadları güclənməkdə davam edir. "Hər bir region getdikcə daha ciddi fəsadlarla - ekstremal istilər, daşqınlar, quraqlıqlar, yanğınlar və ərzaq çatışmazlığı ilə üzləşir. Hər bir iqtisadiyyat da bu amillərin təsirinə məruz qalır", - o qeyd edib. "Keçirilən tədbir qərarların icrasını sürətləndirmək, tərəfdaşlıqları inkişaf etdirmək və investisiyalar cəlb etmək üçün bütün iştirakçıları birləşdirməyə xidmət edir", - UNFCCC-nin icraçı katibi bildirib.

## "COP29 İQLİM DİPLOMATİYASINA ÖNƏMLİ TÖHFƏ VERİB"

COP31-in baş direktoru, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi nazirinin müavini Fatma Varank bildirir ki, Azərbaycanın keçirdiyi COP29 iqlim diplomatiyasına önəmli töhfə verib. Onun sözlərinə görə, iqlimlə bağlı böhran sərhədləri açırsa, ölkələr də buna qarşı iradə göstərməlidir: "COP31-də bunu təşviq etmək niyyətindəyik. Bakı maliyyələşmə hədəfi ətrafında konsensus formalaşdıran, Bakıdan Beleмə yol xəritəsini irəli aparan və Paris Sazişinin 6-cı maddəsi çərçivəsində karbon bazarı qaydalarını yekunlaşdıran COP29 Sədrliyini iqlim diplomatiyasına verdiyi bu töhfələrə görə təqdir edirəm. Bu uğurlar Antalya yolunda fəaliyyətimiz üçün güclü bünövrə yaradacaq".

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev bildirib ki, Türk dünyası ölkələri biomüxtəlifliyin qorunması, təbii irsin mühafizəsi və iqlim dayanıqlılığının artırılması üçün ənənəvi



bilikləri və müasir yanaşmaları birləşdirməlidir. O, UNESCO-nun transsərhəd Ümumdünya İrsi obyekti olan və Azərbaycanla qonşu ölkələr arasında bölünmüş Hirkan meşələrinin qorunması məsələsində əməkdaşlığın vacibliyini vurğulayıb. "Onların qorunması elmin, mühafizə olunan ərazilərin idarə edilməsinin və yerli biliklərin birləşdirilməsinin vacibliyini nümayiş etdirir", - prezidentin nümayəndəsi bildirib. Onun sözlərinə görə, Türk dünyası ölkələri artıq toplanmış mədəni qarşılıqlı əlaqə təcrübəsi əsasında təbiətin mühafizəsi sahəsində əməkdaşlığı genişləndirə bilərlər.



# SOCAR prezidenti Çin nümayəndə heyəti ilə görüşüb

Azərbaycan və Çin arasında enerji sektorunun müxtəlif sahələrində, o cümlədən emal və neft-kimya, istehsal müəssisələrinin modernləşdirilməsi, həmçinin yaşıl enerji layihələrinin inkişafı, innovasiya və rəqəmsallaşma üzrə əməkdaşlıq məsələləri müzakirə edilib. "Report" barədə Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) istinadən xəbər verir.

Məlumata görə, şirkətin prezidenti Rövşən Nəcəf "Çin Milli Kimya Mühəndisliyi və Tikinti Korporasiyasının (CC7) İdarə Heyətinin sədri Lunq Xayyanq, eləcə də Çin İnkişaf Bankının və Çin Beynəlxalq Mədəniyyət Mübadiləsi Mərkəzində Beynəlxalq Enerji İqtisadiyyatı İnstitutunun nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Çin arasında müxtəlif sahələrdə, o cümlədən enerji və investisiya qoyuluşu istiqamətində inkişaf edən strateji tərəfdaşlıq münasibətlərinin SOCAR ilə Çin şirkətləri və maliyyə institutları arasında əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanlar yaratdığı qeyd olunub.

Söhbət zamanı qonaqlara SOCAR-ın inkişaf strategiyası, həyata keçirdiyi və perspektivdə nəzərdə tutulan enerji layihələri barədə məlumat verilib.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1199
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# DAHA ÇOX AVTOMOBİL, DAHA ÇOX TIXAC



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son 5 ildə Azərbaycanda avtomobil parkı 31 faizdən çox böyüyüb və nəqliyyat vasitələrinin sayı 2 milyona yaxınlaşır. Artan nəqliyyat yükü fonunda Bakıda tıxac və parklanma böhranının daha da dərinləşəcəyi qaçılmaz görünür.

Azərbaycanda avtomobillərin sayı sürətlə artır. 2025-ci ilin yekunlarına görə, ölkədə avtomobillərin ümumi sayı 1 milyon 934 min 598-ə çatıb. Son beş ildə isə avtomobil parkı 31,3 faiz böyüyüb. Bəs avtomobillərin sayındakı bu artım hansı həddə qədər davam edə bilər? Şəhərin yol və parklanma infrastrukturu artan nəqliyyat yükünü qarşılamağa hazırdırmı?

### "AVTOMOBİLİM VARSA, MÜTLƏQ ONUNLA GETMƏLİYƏM" DÜŞÜNCƏSİ

Yol infrastrukturu üzrə ekspert Yasin Mustafayevin sözlərinə görə, ölkəyə hər il 100 mindən çox nəqliyyat vasitəsinin daxil olması və onların böyük hissəsinin Bakıda cəmləşməsi paytaxtda nəqliyyat sıxlığının və tıxacların artmasına səbəb olur: "Əslində, avtomobillərin sayının artması təbii prosesdir. Mövcud vəziyyəti inkişaf etmiş ölkələrlə müqayisə etsək, 10 milyonluq əhalimizə təxminən 2 milyon avtomobil düşür ki, bu da hər 5 nəfərə bir nəqliyyat vasitəsi deməkdir. Almaniya kimi ölkələrdə isə hər iki nəfərə bir avtomobil düşür. Yəni qlobal mənzərə ilə müqayisədə Azərbaycanda avtomobilləşmə səviyyəsi o qədər də yüksək deyil. Bizdə əsas problem insanların nəqliyyatdan istifadə vərdişləri ilə bağlıdır. Xüsusilə Bakı kimi böyük şəhərlərdə şəxsi avtomobili olan insanlar ən qısa məsafələrə belə avtomobillə getməyə üstünlük verirlər. Cəmiyyətdə "avtomobilim varsa, mütləq onunla getməliyəm" düşüncəsi formalaşıb. Tıxac və parklanma probleminin əsas səbəblərindən biri də məhz bu yanaşmadır".

### "TIXAC VƏ PARKLANMA KİMİ PROBLEMLƏR KƏSKİNLƏŞƏ BİLƏR"

Y.Mustafayev bildirdi ki, hazırda şəhərdə avtobus zolaqlarının yaradılması və mikromobillik infrastrukturunun, o cümlədən velosiped yollarının inkişaf etdirilməsi problemin həllinə yönəlmiş addımlardandır. Vətəndaşların da bu alternativlərdən daha fəal istifadə etməsi vacibdir: "Digər ölkələrin təcrübəsi göstərir ki, avtomobillərin sayı yüksək olsa belə, insanların gündəlik hərəkətlərində ictimai nəqliyyata və mikromobillik vasitələrinə üstünlük verməsi şəhərlərdə nəqliyyat yükünü azaltmağa imkan verir. Təbii ki, nəqliyyat vasitələrinin sayı artdıqca tıxac və parklanma yerlərinin çatışmazlığı kimi problemlər də kəskinləşə bilər. Düşünürəm ki, zaman keçdikcə bu çətinliklər insanların nəqliyyatdan istifadə vərdişlərinə də təsir göstərəcək. Tıxac və sıxlıq probleminin həlli avtomobil almağın qarşısını almaqdan deyil, şəxsi avtomobildən istifadəyə alternativlərin yaradılmasından keçir. Çünki avtomobil almaq istəyən vətəndaşa sadəcə "avtomobil alma" demək mümkün deyil".






## "Proses qarşıdakı illərdə də davam edəcək"

Nəqliyyat eksperti Adil Nəbiyev də düşünür ki, son beş ildə avtomobil parkının 31,3 faiz böyüməsi kifayət qədər yüksək göstəricidir və bunu sadəcə təbii avtomobilləşmə kimi qiymətləndirmək düzgün olmaz: "2025-ci ilin yekununda avtomobillərin ümumi sayının 1 milyon 934 min 598-ə çatması onu göstərir ki, ölkədə, xüsusilə də Bakı və Abşeron ərazisində nəqliyyat tələbatı sürətlə artır. Avtomobil sayının artması özlüyündə mənfi hal deyil. Problem avtomobillərin sayının artım tempi ilə şəhərin yol-nəqliyyat sisteminin inkişaf tempi arasında ciddi fərq yarandıqda başlayır. Qarşıdakı illərdə də ölkədə avtomobillərin sayının artması davam edəcək. Bakı və ətraf ərazilərdə yaşayış massivlərinin genişlənməsi, insanların iş, təhsil və digər gündəlik səfərlərinin məsafəsinin uzanması, ailələrin ikinci avtomobil almağa meyillənməsi bu prosesi sürətləndirir. Eləcə də bəzi istiqamətlərdə ictimai nəqliyyatın şəxsi avtomobilə tam alternativ ola bilməməsi böyük rol oynayır. Xüsusilə şəhərətrafı qəsəbələrdən Bakının mərkəzinə gündəlik gələn insanlar üçün sürətli, rahat və proqnozlaşdırıla bilən ictimai nəqliyyat imkanları kifayət etmədikdə şəxsi avtomobil zərurətə çevrilir".

## Bu tendensiya qarşılanmazsa...

A.Nəbiyev bildirdi ki, Bakı kimi artıq formalaşmış şəhərdə davamlı şəkildə yeni yollar tikmək və mövcud yolları genişləndirmək fiziki olaraq mümkün deyil: "Bəzi yolların genişləndirilməsi müəyyən müddətdən sonra əlavə avtomobil axını yaradaraq həmin infrastrukturun yenidən yüklənməsinə gətirib çıxarır. Buna görə də problemi yalnız yeni körpü və tunellərin tikintisi ilə həll etmək olmaz. Əsas məqsəd mövcud yol sahəsindən daha səmərəli istifadə etmək, avtobusların hərəkət intervalını azaltmaq, şəhərətrafı dəmir yolu və metro imkanlarını genişləndirmək, həmçinin müxtəlif nəqliyyat növləri arasında rahat keçid yaratmaq olmalıdır. Bu tendensiya qarşılanmazsa, bizi sadəcə tıxac deyil, orta hərəkət sürətinin düşməsi, vaxt itkisi, yanacaq sərfiyyatının artması və nəticədə böyük iqtisadi itkilər gözləyir".

Ekspertin sözlərinə görə, digər ciddi böhran parklanma ilə bağlıdır. Avtomobil sayının artması həm yaşayış məhəllələrində, həm də şəhər mərkəzində dayanacaq tələbatını kəskin yüksəldir: "Lakin çıxış yolu şəhərin hər küçəsini avtomobil dayanacağına çevirmək deyil. Çünki daha çox parklanma yeri yaratdıqca, həmin ərazilərə daha çox avtomobil cəlb etmək riski yaranır. Çoxmərtəbəli və yeraltı dayanacaqların yaradılması, qanunsuz parklanmanın qarşısının alınması və ictimai nəqliyyat qovşaqlarının yaxınlığında avtomobili saxlayıb səfəri avtobus və ya metro ilə davam etdirməyə imkan verən dayanacaq sistemlərinin inkişaf etdirilməsi vacibdir".



Fotolar: Sabir Məmmədov/Tapdıq Abdullayev /Global Media Group

# ƏLLƏR DAYANACAQ, BEYİNLƏR İŞLƏYƏCƏK

**Süni intellektin imkanlarının genişlənməsi xüsusilə fiziki və təkrarlanan əməyin gələcəyi barədə sualları aktuallaşdırıb. Fiziki əməyin yaxın 2-5 il ərzində demək olar ki, bütün sahələrdə robotlar tərəfindən yerinə yetirilə biləcəyi barədə proqnozlar verilir.**

SEVİNC ABBASOVA

Yeni texnologiyaların sürətli inkişafı əmək bazarının gələcəyi ilə bağlı təsəvvürləri də dəyişir. Süni intellektin imkanlarının genişlənməsi xüsusilə fiziki və təkrarlanan əməyin gələcəyi barədə sualları aktuallaşdırıb.

Almaniyanın robototexnika şirkəti "Neura Robotics"in təsisçisi Devid Reger iddialı proqnoz irəli sürüb. O, fiziki əməyin yaxın 2-5 il ərzində demək olar ki, bütün sahələrdə robotlar tərəfindən yerinə yetirilə biləcəyini bildirib. Bəs, bu proqnoz nə dərəcədə real görünür?

### ƏMƏK BAZARI ÖLKƏLƏRƏ GÖRƏ FƏRQLİ DƏYİŞƏCƏK

Əmək bazarı üzrə ekspert İlkin Mirzəzadənin fikrincə, süni intellekt və avtomatlaşdırmanın əmək bazarına təsiri ölkələrin inkişaf səviyyəsindən asılı olaraq dəyişəcək. Onun sözlərinə görə, hazırda bu texnologiyalardan inkişaf etmiş ölkələrdə daha geniş istifadə olunur. Postsovet və inkişaf etməkdə olan ölkələrdə isə prosesin daha gec sürətlənəcəyi gözlənilir. "İnkişaf etmiş ölkələrdə bu texnologiyalara keçid 5-8 il ərzində baş verə bilərsə, bizdə bu proses 10 il və daha çox müddətə uzana bilər. Bununla belə, düşünmürəm ki, əl əməyi və fiziki güc tələb edən peşələr tamamilə sıradan çıxacaq. Bu sahələr həmişə olacaq. Lakin müəyyən istehsalat proseslərində və digər funksiyaların yerinə yetirilməsində əl əməyinin payı azala bilər", - deyə mütəxəssis bildirib.

İ.Mirzəzadənin sözlərinə görə, inkişaf etmiş ölkələrdə əhalinin, o cümlədən gənc nəslin sayının azalması avtomatlaşdırmanı onlar üçün daha zəruri edir. Belə ölkələrdə əl əməyinin texnologiyalarla əvəzlənməsi gələcəkdə əmək resurslarına olan tələbatın qarşılanmasına imkan verə bilər.

### HANSI PEŞƏLƏR SIRADAN ÇIXACAQ?

Ekspert hesab edir ki, ilk növbədə avtomatlaşdırılması daha asan olan və təkrarlanan işlər süni intellekt və robot texnologiyalarının təsiri ilə dəyişəcək. Buraya müəyyən qablaşdırma işləri, məlumatların daxil edilməsi, kassir və operator fəaliyyəti kimi sahələr daxildir. Daha çox analitik düşüncə, qərarvermə və proseslərə nəzarət tələb edən peşələrə isə ehtiyac qalmaqda davam edəcək. Onun fikrincə, bu dəyişikliklər çalışan insanların yeni bacarıqlar qazanmasını zəruri edəcək. Xüsusilə analitik istiqamətlərə, süni intellektlə işləməyi tələb edən vəzifələrə yönəlmək, bilik və bacarıqları davamlı şəkildə təkmilləşdirmək vacibdir. "Ümumiyyətlə, gələcək əmək bazarını iki əsas kateqoriyaya bölmək olar: süni intellekti yaradanlar və onunla işləməyi bacaranlar. Bu texnologiyalarla işləməyi bacarmayanlar isə tədricən əmək bazarından çıxacaqlar. Bununla artıq razılaşmalı və gələcək üçün hazırlaşmalıyıq", - deyə ekspert əlavə edib.

## Süni intellektə keçid mərhələli olacaq


İlkin Mirzəzadə


Emin Qəribli


Foto: Sabir Məhəmmədov/Global Photostock

Elvin Abbasov

İqtisadçı-ekspert Emin Qəribli isə hesab edir ki, yeni sənaye inqilabı, rəqəmsallaşma və süni intellekt əmək bazarında ciddi dəyişikliklərə səbəb olacaq. Onun sözlərinə görə, müxtəlif sahələrdə ixtisarların və robotların insan əməyini əvəz etməsinin sürəti ölkələrə və sahələrə görə fərqlənəcək: "90-cı illərin əvvəlində internetin yaranması ilə dünyada qısa müddətdə sıçrayışlı dəyişikliklərin baş verəcəyi gözlənilirdi. Amma həmin dövrdən 30 ildən çox vaxt keçib və onlayn satış, nağdsız ödəniş kimi dəyişikliklər yalnız son illərdə daha geniş yayılıb. Bu baxımdan, süni intellektə keçid üçün də müəyyən mərhələ lazımdır. Ola bilər ki, bəzi sahələr bu prosesə 2-3 ilə, digərləri isə 10-15 ilə keçsin və ixtisarlar başlasın".

Ekspertə görə, gələcəkdə əsas tələbat süni intellektlə işləməyi bacaran insanlara olacaq: "Təxminən 20 ildən sonra bəzi sahələrdə fiziki əmək tamamilə süni intellekt və robot texnologiyaları ilə əvəz oluna bilər. Bu prosesdən qorxmaq lazım deyil. Əksinə, buna maksimal biliklərlə silahlanaraq hazırlaşmaq lazımdır. Kim daha çox bilik və bacarıq əldə edəcəksə, daha uğurlu olacaq".

### ROBOTLARIN ÜÇ ƏSAS MƏHDUDİYYƏTİ

İnformasiya texnologiyaları üzrə mütəxəssis Elvin Abbasov hesab edir ki, yaxın gələcəkdə fiziki əməyin tamamilə sıradan çıxması ehtimalı real görünmür: "Əməyin xarakteri əhəmiyyətli dərəcədə dəyişəcək, təkrarlanan, ağır və təhlükəli fiziki işlər avtomatlaşdırılacaq. Lakin fiziki əməyin tamamilə yoxa çıxması əvəzinə insan və robotların birgə fəaliyyət göstərdiyi yeni bir model formalaşacaq".

E.Abbasovun sözlərinə görə, hazırkı texnologiyanın fiziki əməyi tam əvəz edə bilməməsinin arxasında ilk növbədə Moravek paradoksu və incə motorika məhdudiyyəti dayanır: "Süni intellekt mürəkkəb data bazalarını analiz etmək kimi zehni tapşırıqları insanlardan daha yaxşı yerinə yetirsə də, obyekti zədələmədən tutmaq, çeşidləmək və ya qeyri-düzgün formalı əşyalara uyğun güc tətbiq etmək kimi fiziki hərəkətlərdə çətinlik çəkir. İnsanın toxunma hissiyyatı və əl əzələlərinin çevikliyi hazırda robot sensorları tərəfindən tam imitasiya edilə bilmir.

Digər əsas məhdudiyyət robotların dəyişkən və qeyri-müəyyən mühitlərə adaptasiya ola bilməməsidir. Robotlar zavod və ya anbar kimi tam strukturlaşdırılmış mühitlərdə çox effektiv olsa da, tikinti meydançası, kənd təsərrüfatı sahəsi və ya yaşayış evləri kimi hər an dəyişən, gözlənilməz manevrlərin olduğu yerlərdə real vaxt rejimində çevik qərar qəbul edə bilmirlər. Eyni zamanda, robotların enerji effektivliyi və batareya ömrü hələ də məhduddur".

Ekspert qeyd edib ki, insanlar fiziki iş görərkən materialların xassələrini intuitiv olaraq nəzərə aldıqları halda, süni intellekt yalnız təlim keçdiyi datalar çərçivəsində fəaliyyət göstərir və gözlənilməz fiziki şəraitlə qarşılaşdıqda adekvat reaksiya verə bilmir: "Ona görə də, texnologiya fiziki əməyi tam ləğv etməyəcək, sadəcə insanı ağır fiziki yükdən azad edərək daha çox tənzimləyici və nəzarətçi roluna yönəldəcək".



ÜÇ ƏSRİN QƏZETİ
Kaspi


# PAYTAXTIN İKİTƏKƏRLİ PROBLEMİ

Skuterlər şəhər nəqliyyatına alternativə çevrilsə də, onların yollarda və parklarda yaratdığı təhlükə narahatlıq doğurur. Ekspertlər problemin həlli üçün daha sərt nəzarət və yeni qaydalar təklif edirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Foto: Tapdıq Abdullayev/Global Photostock

Son vaxtlar skuterlərin iştirakı ilə baş verən qəzaların artması təhlükəsizlik məsələsini yenidən gündəmə gətirir. Sirr deyil ki, skuterdən istifadə edənlər arasında yeniyetmə və gənclər kifayət qədər çoxdur. Yeni tədris ilinin başlaması ilə skuterlərdən istifadənin də artacağı ehtimal olunur. Bəs artan istifadə fonunda skuterlərin təhlükəsizliyinə nə dərəcədə nəzarət edilir? Mövcud qaydalar və nəzarət mexanizmləri kifayətdirmi?

### BŞDYP: "SKUTER İDARƏ EDƏNLƏRİN SAYI GÜNDƏN-GÜNƏ ARTIR"

Bakı Şəhər Dövlət Yol Polisi (BŞDYP) İdarəsinin bölmə rəisi, polis mayoru Toğrul Nəsirli sorğumuza cavab bildirdi ki, BŞDYP tərəfindən kiçik elektrik nəqliyyat vasitələrinin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində mütəmadi olaraq nəzarət-profilaktik tədbirlər həyata keçirilir: "Paytaxt ərazisində skuter idarə edənlərin sayı gündən-günə artır və bu da öz növbəsində qəza riskini yüksəldir. Belə nəqliyyat vasitələrini idarə edən bəzi şəxslərin yollarda xaotik hərəkət etməsi sürücülər, səkilərdə hərəkət etməsi isə piyadalar üçün ciddi təhlükə yaradır. Belə hallar yolverilməzdir. Mövcud qanunvericiliyin tələblərinə əsasən, skuterlər nəzərdə tutulmuş xüsusi yerlərdə, velosiped zolaqlarında, həmçinin yolun sağ zolağında, nəqliyyat axınına mane olmamaq şərtilə idarə edilməlidir".

T.Nəsirli qeyd etdi ki, DYP əməkdaşları tərəfindən qayda pozan kiçik elektrik nəqliyyat vasitələrinin sürücüləri aşkar edildikdə, barələrində İnzibati Xətalar Məcəlləsinin 338-ci maddəsinə əsasən inzibati protokol tərtib edilir: "DYP skuter sürücülərini yol hərəkəti və təhlükəsizlik qaydalarına riayət etməyə çağırır. Qaydalara əməl etməyən şəxslər barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcək".



Toğrul Nəsirli

### "SKUTER SÜRƏN VƏTƏNDAŞ DA YOL HƏRƏKƏTİ İŞTİRAKÇISIDIR"

Nəqliyyat eksperti Eldəniz Cəfərov bildirdi ki, skuter və ya elektrikli samokat sürən vətəndaş da yol hərəkəti iştirakçısıdır və bütün yol hərəkəti iştirakçıları kimi DYP-nin tələblərinə tabe olmalıdır: "Skuterlərə nəzarət mexanizmi mövcuddur və bu, qanunvericilikdə də təsbit olunub. Lazım gəldikdə polis əməkdaşları tənbeh edə, maarifləndirmə işi apara və cərimə tətbiq edə bilərlər. Bununla bağlı "Yol hərəkəti haqqında" qanuna dəyişiklik edilib, İnzibati Xətalar Məcəlləsində də cərimələrlə bağlı maddələr yer alıb".

E.Cəfərovun sözlərinə görə, son dövrlər fərdi mobillik vasitələrinə maraq artıb və bu tendensiyanın gələcəkdə də davam edəcəyi gözlənilir: "Buna görə də əsas məqsəd onların istifadəsinin qarşısını almaq deyil, bu vasitələr üçün müvafiq şərait yaratmaq, qanunvericilik bazasını təkmilləşdirmək və nəzarəti gücləndirmək olmalıdır. Fərdi mobillik vasitələri şəhər mühitində alternativ nəqliyyat vasitəsi hesab olunur və xüsusilə gənclər tərəfindən istifadəsi nəqliyyatın şaxələndirilməsi baxımından müsbət nümunədir".



Eldəniz Cəfərov

### "Skuter sürücüsünün yaşı ən azı 14 olmalıdır"

Ekspert qeyd etdi ki, skuter istifadəçilərinin yaş həddi ilə bağlı da qanuni tələb mövcuddur: "Yola çıxan skuter sürücüsünün yaşı ən azı 14 olmalıdır. Dəbilqə məsələsinə gəlincə, moped və motosiklet sürənlər üçün dəbilqə məcburidir, velosiped və elektrikli samokat sürənlər üçün isə belə tələb yoxdur. Bu məsələ ilə bağlı geniş müzakirələr aparılmalı və skuterlər üçün dəbilqənin məcburi olub-olmaması ayrıca qiymətləndirilməlidir".

E.Cəfərovun sözlərinə görə, skuterlərin maksimal sürəti ilə bağlı da şəhər mühitinin xüsusiyyətləri nəzərə alınmalıdır: "Bəzi şəhərlərdə bu hədd saatda 25 kilometrdən çox deyil. Skuterlərin texniki olaraq daha yüksək sürətə çata bilməsinə baxmayaraq, şəhər daxilində icazə verilən sürət həddi təxminən bu səviyyədə müəyyənləşdirilir. Məktəb və universitetlərin ətrafında isə zərurət yarandığı halda əlavə sürət məhdudiyyətlərinin tətbiqi məsələsinə baxıla bilər".

### "Skuterlər çox böyük təhlükə yaradıb"

Qəza Əleyhinə Sürücülük Kurslarının məşqçisi Aqil Rəhimov hesab edir ki, son illərdə skuterlər çox böyük təhlükə yaradıb. Əvvəllər moped və motosiklet sürücülərindən narazılıq edilirdisə, hazırda skuterlərin idarə olunması daha ciddi narahatlıq doğurur: "İstər uşaqların, istər böyüklərin qarşı zolağa çıxması, avtomobillərin arasında şütüməsi, bir skuterdə iki nəfərin hərəkət etməsi və yollarda təhlükəli manevrlər etməsi həm sürücülər, həm də piyadalar üçün risk yaradır. Hətta parklarda belə insanlar skuterlərin yaratdığı təhlükədən rahat istirahət edə bilmirlər".

A.Rəhimovun sözlərinə görə, bəzi ölkələrdə skuterlərin istifadəsi ilə bağlı müxtəlif məhdudiyyətlər tətbiq olunur və bu təcrübələr Azərbaycanda da müzakirə mövzusu ola bilər: "Məsələn, Kanada, Fransa və Yaponiyadakı yanaşmaları nümunə göstərmək olar. Yollara çıxan istənilən nəqliyyat vasitəsinin sürücüsü müəyyən hazırlıqdan keçməlidir".

### "BU İSTİQAMƏTDƏ KONKRET ADDIMLARIN ATILMASINA EHTİYAC VAR"

Ekspert qeyd etdi ki, bütün skuter sürücülərinə avtomobil üçün nəzərdə tutulan sürücülük vəsiqəsinin verilməsi mümkün deyil, amma bunun əvəzinə ayrıca mexanizm yaradıla bilər: "Skuter idarə edən şəxslərin yol hərəkəti qaydalarını bilməsini və müəyyən hazırlıq keçməsini təmin edən sistem yaradılması təhlükəsizlik baxımından məqsədəuyğun olardı. Skuterlər getdikcə daha təhlükəli şəkildə idarə olunarsa, onların istifadəsinin qadağan edilməsi məsələsi də gündəmə gələ bilər".

A.Rəhimovun sözlərinə görə, skuter sürücülərinin müxtəlif qəzalara düşməsi də problemin ciddiliyini göstərir. Ekspertin diqqət çəkdiyi digər məqam isə 13-14 yaşlı uşaqların valideynlərinin kartlarından istifadə edərək skuter icarəyə götürməsidir: "Valideynlər bu məsələdə nəzarəti gücləndirməli, Dövlət Yol Polisi isə 14 yaşdan aşağı uşağın skuter idarə etdiyini aşkar etdikdə, valideynlərin məsuliyyəti məsələsinə baxmalıdır. Məsələ kifayət qədər ciddidir və yaxın vaxtlarda bu istiqamətdə konkret addımların atılmasına ehtiyac var".



Aqil Rəhimov

# BƏDƏNİMİZ "OFFLİNE" OLANDA



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Gün ərzində 2000 addım atanlarla müqayisədə 7000 addım atan şəxslərdə ümumi ölüm riski 47%, ürək-damar xəstəlikləri riski isə 25% aşağı düşür. Populyar olan "gündə 10 000 addım" heç də sehrli rəqəm deyil. Əsas məsələ gün ərzində hərəkətliliyi artırmaqdır.**









Texnologiyanın bizə bəxş etdiyi ən böyük lüks oturduğumuz yerdən hər şeyə çatmaq imkanıdır. Artıq uzun məsafələri qət etmədən, sadəcə bir tətbiq vasitəsilə istədiyimizə sahib oluruq. Bir kliklə gələn bu komfort həyatımızı asanlaşdırsa da, bizi getdikcə hərəkətsizliyə məhkum edir. Mütəxəssislər hərəkətsizliyin bioloji qocalma proseslərini sürətləndirdiyini iddia edirlər. Bəs fiziki aktivlik azaldıqda bədəndə tam olaraq nə baş verir?

Terapevt Gülşən Məmmədova bildirir ki, uzun müddət oturaq qaldıqda orqanizmdə proseslər mənfiyə doğru dəyişir: "Əzələlərin yığılması azalır, qlükozanın mənimsənilməsi zəifləyir və lipid mübadiləsi pozulur. Əzələ işləmədikcə yağları parçalayan LPL fermentinin fəaliyyəti kəskin düşür, bədən daha çox insulin ifraz edir. Bu da zamanla qaraciyərdə piylənməyə və diabetə yol açır. Hərəkətsizliyin yaratdığı xroniki iltihab və oksidativ stres telomerlərin qısalmasını tətikləyir. Araşdırmalar fiziki aktiv insanlarda telomerlərin daha uzun olduğunu göstərir. Lakin bu, az hərəkət edənin hüceyrəsi dərhal qocalır demək deyil. Söhbət illərlə toplanan metabolik yükdən gedir".

### "GÜNDƏ 10 000 ADDIM" SEHRLİ RƏQƏM DEYİL"

Həkim addım sayı ilə bağlı aparılan son elmi tədqiqatlara da diqqət çəkir: "2025-ci ildə 57 tədqiqatı əhatə edən sistematik icmala əsasən, gündə təxminən 5000-7000 addım atmaq sağlamlıq göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Məsələn, gündə 2000 addım atanlarla müqayisədə 7000 addım atan şəxslərdə ümumi ölüm riski 47%, ürək-damar xəstəlikləri riski isə 25% aşağı düşür. Yəni populyar olan "gündə 10 000 addım" sehrli rəqəm deyil. Əsas məsələ gün ərzində hərəkətliliyi artırmaqdır".

Ayaqlardakı əzələlərin funksiyasına toxunan terapevt vurğulayır ki, yeriyəndə əzələlər "ikinci ürək" rolunu oynayır: "Baldır əzələlərinin yığılması venalarda olan qanı yuxarı, ürəyə doğru itələyir. Hərəkətsiz qaldıqda bu əzələ pompası zəifləyir, aşağı ətraflarda venoz durğunluq artır. 2024-cü ildə dərc olunmuş 31 tədqiqatı əhatə edən meta-analizdə oturaq davranışın venoz tromboemboliya (qan laxtalanması) ilə birbaşa əlaqəsi göstərilib. Oturulan hər əlavə saat riskin artması deməkdir. Sümük passiv toxuma deyil. Üzərinə düşən fiziki yükə uyğun olaraq yenilənir. Yerimə və əzələ yığılması sümüyə "möhkəm qal" siqnalı verir. Yük azaldıqda isə sümük kütləsi itirilir".



Gülşən Məmmədova

## "METABOLİK FƏSADLAR GƏNCLƏŞİB"

Mütəxəssisin sözlərinə görə, əvvəllər yalnız yaşlılarda görünən metabolik fəsadlar xeyli gəncləşib: "Artıq 20-25 yaşlı gənclərdə artıq çəki ilə yanaşı insulin müqaviməti, prediabet, II tip diabet, yüksək təzyiq, qaraciyər piylənməsi, bel-boyun ağrıları və xroniki qəbizlik kimi problemlərlə qarşılaşırıq. Xüsusilə gənc yaşda başlayan II tip diabet daha böyük təhlükə saçır. Son elmi icmallar göstərir ki, gənclərdə bu xəstəlik yaşlılara nəzərən daha aqressiv gedir. Çünki insan nə qədər tez xəstələnirsə, diabetin yarada biləcəyi damar, böyrək və digər ağır fəsadların təsiri altında bir o qədər uzun illər qalmalı olur. Əlbəttə, bunun tək səbəbi hərəkətsizlik deyil. Genetika, yanlış qidalanma, yuxusuzluq və stress də böyük rol oynayır. Lakin oturaq həyat tərzi bütün bu risk faktorlarını daha da tətikləyir".

Həkim qocalma mexanizminiləngitmək və sağlamlığı qorumaq üçün öz formulunu da bizimlə bölüşür: "Düsturumuz sadədir: Daha çox addım, daha az fasiləsiz oturma, həftədə ən azı iki dəfə əzələ yükü. Gündəlik məqsəd kimi 7000-8000 addım yaxşı hədəfdir. Amma hazırda 2000-3000 addım atan birinə birdən "10 min addım at" deməyin mənası yoxdur. İlkin məqsəd göstəricini hər gün 1000-2000 addım artırmaqdır. İkinci qaydam 30-60 dəqiqədən artıq fasiləsiz oturmamaqdır. Gündə bir saat idman edib qalan 10-12 saatı oturmaq da fayda vermir. Telefonla danışanda ayağa qalxmaq, liftdən bir-iki mərtəbə əvvəl düşmək, yaxın marketə piyada getmək günün sonunda böyük fərq yaradır. Üçüncü qayda isə həftədə ən azı iki dəfə əzələ gücləndirən hərəkətlər etməkdir. Texnologiyanı düşmən elan etmək lazım deyil".



Aysel Qafarova

## OTURAQ HƏYAT TƏRZİNİN FƏSADLARI YALNIZ FİZİKİ SAĞLAMLIQLA BİTMİR

Oturaq həyat tərzinin fəsadları yalnız fiziki sağlamlıqla bitmir. Məsələnin görünməyən tərəfi psixologiyamızdır. Hərəkətsizliyin ruhi sağlamlığımıza və davranışlarımıza təsirini psixoloq Aysel Qafarova belə izah edir: "Texnologiyanın təqdim etdiyi komfort gündəlik fəaliyyətimizi sıfırlayaraq hərəkətsizliyi artırır. Bu passivlik insanı cəhd eləməkdən uzaqlaşdırır, maraq dairəsini daraldır və birbaşa məqsədsizliyə gətirib çıxarır. Məqsədsiz qalan fərd zamanla tənbəlləşir, özünəinamını itirir və depressiyaya sürüklənir ki, bu da mental sağlamlığa ağır zərbədir. İnsan beyni hər gün təkrarladığı əməliyyatlara tez vərdiş edir. Bir kliklə, yerindən tərpənmədən istədiyinə çatmaq beynin "zəhmətsiz mükafatlara" öyrəşməsi deməkdir. Nəticədə daha çox səy tələb edən işlər öz cəlbediciliyini itirir. Dopamin sisteminin əsasında "istə, axtar, əldə et və təkrarla" mexanizmi dayanır. Texnologiya bu dövrəni fasiləsiz işlədərək anlıq həzz istəyini artırır. Bunu real həyatda ala bilmədikdə isə insanda səbirsizlik və ya kəskin passivlik baş qaldırır".

### "TƏNHALIQ HİSSİ DƏRİNLƏŞİR"

Ekspert vurğulayır ki, həyat tərzindən və xarakterdən asılı olaraq, hərəkətsizlik depressiya, xroniki yorğunluq və ya həyəcan pozuntusunu tətikləyə bilər: "Melanxolik xarakterli şəxslər üçün bu vəziyyət artıq adət olunmuş həyat tərzinə çevrilir. Fiziki aktivlik bədənlə beyin arasındakı harmoniyanı qoruyur. Hərəkət azaldıqda isə enerji mübadiləsi, yuxu keyfiyyəti və stressə dözümlülük zəifləyir, insan özünü daim yorğun, həvəssiz və narahat hiss edir. Digər tərəfdən, vacib psixoloji ehtiyaclarımızdan olan sosial münasibətlər artıq canlı təmasdan ekran müstəvisinə keçib. Sosial şəbəkələrdə asılılığın artması tənhalıq hissini də dərinləşdirir".

# RƏQƏMLƏRİN ARXASINDAKI SOSİAL REALLIQ

Azərbaycanda “Qocalar evi”ndə yaşayanların sayı azalıb. Mütəxəssislər bunu müsbət tendensiya kimi qiymətləndirirlər. Azalmaya səbəb kimi isə sosial xidmətlərin alternativ formalarının genişlənməsi göstərilir.











TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda qocalar evlərinə yerləşdirilən yaşlıların sayında azalma müşahidə olunur. Halbuki son illərin sosial-iqtisadi çətinlikləri - pandemiya, müharibələr və ümumilikdə cəmiyyətdə baş verən dəyişikliklər fonunda ailəsindən ayrı düşən, övladları tərəfindən tərk edilən yaşlıların sayının artacağı gözlənilə bilərdi. Amma statistika əks tendensiyanı göstərir. Bəs bu azalmanın səbəbi nədir: yaşlılara ailələri tərəfindən daha çox qayğı göstərilir, yoxsa insanlar qocalar evinə müraciət etməkdən çəkinirlər? Rəqəmlərin arxasında hansı sosial reallıq dayanır?

### HAZIRDA 215 AHIL ŞƏXS DÖVLƏT HİMAYƏSİNDƏ YAŞAYIR

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyindən bildirildi ki, ölkəmizdə ahıllar sosial-məişət, tibbi-sosial, sosial-psixoloji, sosial-hüquqi və sosial-mədəni xidmətlərlə təmin edilirlər. Agentliyin məlumatına görə, hazırda 215 ahıl şəxs dövlət himayəsində yaşayır. Onlardan 111 nəfəri kişi, 104 nəfəri isə qadındır: “Müəssisəyə yaşı 70 və 70-dən yuxarı olan, tamamilə və ya qismən özünəqulluq qabiliyyətini itirən, psixi və yoluxucu xəstəliyi olmayan, eləcə də qulluq edə biləcək yaxın qohum və qanuni nümayəndələri olmayan şəxslər qəbul edilir”.  Agentliyin məlumatına görə, ahıl şəxslərin müəssisəyə yerləşdirilməsi ilə bağlı qərar onların sosial vəziyyəti, özünəqulluq imkanları, ailə və yaxın qohumlarının mövcudluğu, yaşayış şəraiti və digər fərdi amillər nəzərə alınmaqla müəyyən edilir: “Bu səbəbdən ayrı-ayrı dövrlərdə müəssisədə yaşayan şəxslərin sayında müşahidə olunan dəyişikliklər müxtəlif sosial və fərdi səbəblərlə bağlıdır”. Həmçinin qurum tərəfindən müvafiq imtiyazlı kateqoriyalardan olan şəxslərə evdə (səyyar) sosial xidmət göstərilir: “Hazırda 3033 vətəndaş evdə (səyyar) sosial xidmətə cəlb edilib. Onlardan 2814 nəfəri ahıl şəxsdir. Sosial xidmətçilər vətəndaşların evlərinə gedərək, onlara ev təsərrüfatında, əsas tələbat mallarının alınması və s. işlərdə, sosial işçilər isə hüquqi sənədləşmə və sosial müdafiə tədbirlərinin təşkili istiqamətində köməklik göstərirlər”. Agentlikdən bildirildi ki, qurumun sosial sifarişləri əsasında respublikanın 6 şəhər və rayonunda - Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Qazax və Tovuz üzrə ahıllar üçün günərzi qayğı mərkəzləri fəaliyyət göstərir: “Layihə çərçivəsində 200-ə yaxın ahıl sosial xidmətlə əhatə olunur”.







### AHILLARIN ÖZ MÜHİTLƏRİ OLMALIDIR

Binəqədi rayonunda yerləşən “Ahıllar üçün günərzi qayğı mərkəzi”nin rəhbəri Aynur Zülfüqarova bildirir ki, rəhbərlik etdiyi mərkəzə müraciət edənlərin sayı keçən illə müqayisədə iki dəfə artıb. Bu məsələdə maariflənmə işi böyük rol oynayır”. Mərkəz rəhbəri hesab edir ki, ahılların öz mühitləri olmalıdır: “Mənim öz anam da bizim ahıllar mərkəzindədir. Onlar 70-75 yaşlarına qədər işləyiblər. Bu yaşdan sonra neyləsinlər? Bu mərkəzlər onların sosiallaşması üçün əhəmiyyətli mühitdir. Günərzi mərkəzləri zamanın tələbidir. Bu insanlar yalnız öz yaşıdları arasında sosiallaşa bilərlər. Burada tənha da, kimsəsiz də, övladları olan insanlar da var. İndi övladları sanki onları bağçaya gətirirlər”. A.Zülfüqarova bildirir ki, belə mərkəzlərin açılması üçün çoxlu müraciətlər var.

**Fotolar:** Ramil Yunus /Global Media Group

## GÜNƏRZİ MƏRKƏZLƏRİNƏ MÜRACİƏT EDƏNLƏRİN SAYI ARTIR

Ahıllarla işləyən sosial işçi Mehparə Hümbətova bildirir ki, ahıllar günərzi mərkəzlərinə asudə vaxtlarını səmərəli keçirmək üçün gəlirlər: “Bu cür mərkəzlərə indi maraq yüksəkdir. Əvvəllər atılmış qocalar stereotipi vardı. İndi övladları valideynlərini evdə tək qoymaq istəmirlər. Onlar arxayın olurlar ki, mərkəzlərdə valideynlərinə baxan var. Müşahidələrimiz onu göstərir ki, yatılı yerlərdə də azalma yoxdur, əksinə, müraciət edənlərin sayı artır”.

### NƏSİLLƏR ARASINDAKI FƏRQLİLİK

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvü Zülfiyyə Nuriyeva xidmət müəssisələrinə yerləşdirilən qocaların azalmasını müsbət göstərici hesab edir: “Bu gün müasir və gənc ailələr yaşlılarla birlikdə yaşamaq istəmirlər. Nəsillər arasındakı fərqləri düşünsək, həmçinin bəzi sosial məsələlər, məişət qayğıları ucbatından övladlar valideynlərini qocalar evinə yerləşdirirdilər. Bu gün isə vəziyyət fərqli istiqamətdə dəyişir. Dövlətin bu istiqamətdə əhəmiyyətli proqramları var və bunlar da öz təsirini göstərir. Biz artıq bu insanlara “atılmış” kimi yox, “öz ortamında vaxt keçirmək istəyən” insanlar kimi baxırıq. Azalma da ona görədir ki, ahıllar bu tip mərkəzlərə yönəlir. Həm özlərinin psixoloji-emosional vəziyyətləri rahatlanır, həm də ailənin”. Z.Nuriyeva dünyanın hər yerində belə ahıllar mərkəzlərinin fəaliyyət göstərdiyini bildirir: “Ahıllar öz təqaüdlərindən bu mərkəzlərə ödəniş edir və gün ərzində yaşıdları arasında vaxtlarını keçirirlər. Hələ ki, bizdə bu mədəniyyət formalaşmadığı üçün dövlət bunun alternativi olaraq günərzi qayğı mərkəzləri yaradıb”.

### “İNDİ HƏR KƏS EVDƏ SOSİAL XİDMƏTİ TƏŞKİL EDƏ BİLİR”

Sosioloq İlqar Hüseynlinin fikrincə, sosial xidmətlərin alternativ formalarının genişlənməsi sözsüz ki, sosial xidmət müəssisələrində ahılların azalmasına ciddi təsir göstərir: “Xüsusilə ölkə boyu evdə sosial xidmətin genişlənməsi əsas amil kimi göstərilə bilər. Bunu ailə institutunun möhkəmlənməsi, vətəndaşların ailə içində olan ahıl insanlara sahib çıxması, ata-anaya qayğılı münasibətlərin yeni mərhələyə keçməsi kimi qəbul eləmək lazımdır. Bundan əvvəl ahılları sosial xidmət müəssisələrinə yerləşdirirdilərsə, indi hər kəs evdə sosial xidməti təşkil edə bilir”. Ekspertin fikrincə, ümumi yanaşanda evdə sosial xidmətlərin genişlənməsi müəssisələrdə insanların sayının azalmasına gətirib çıxarır: “Amma bu, hələlik böyük həcmdə deyil və bu o demək deyil ki, sosial xidmət göstərən müəssisələrə ehtiyac yoxdur. Bu ehtiyac hər zaman var. Dövlət bu məsələdə öz imkanlarını qoruyub saxlamalıdır”.



ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
12 SENTYABR ŞƏNBƏ 2026



# ŞAHMAT ELİTASI SƏMƏRQƏNDDƏ TOPLAŞIR

Azərbaycanın böyük şahmat ənənəsi var və bu ənənə yeni nəsillə davam edir. Şəhriyarın təcrübəsi, Teymurun kapitan kimi iştirakı, gənc şahmatçıların yüksəlişi və qadın komandamızın formalaşmış heyəti nikbinlik üçün kifayət qədər əsas verir.

Dünya şahmatının ən güclü simaları növbəti böyük sınağa hazırlaşır. “Ağıl oyunu”nun ustaları bu dəfə Özbəkistanın qədim Səmərqənd şəhərində bir araya gələcəklər. Bura 46-cı Ümumdünya Şahmat Olimpiadasına ev sahibliyi edəcək. Sentyabrın 15-də start götürəcək və ayın 27-dək davam edəcək Olimpiadada dünyanın müxtəlif ölkələrindən şahmatçılar mübarizə aparacaqlar. Azərbaycan “iti zəka sahibləri” də taxta arxasında ağıl və strategiyalarını nümayiş etdirəcəklər.

### HEYƏTİMİZ BƏLLİDİR

Ölkəmizi təmsil edəcək şahmatçıların siyahısı hələ iyul ayında bəlli olub. Kişilərdən ibarət milli komandaya Şəhriyar Məmmədyarov, Aydın Süleymanlı, Məhəmməd Muradlı, Rauf Məmmədov və Eltac Səfərli dəvət olunublar. Komandanın kapitanı isə Teymur Rəcəbov olacaq. İki il əvvəl Budapeştdə keçirilən Olimpiada ilə müqayisədə bu dəfə heyətdə bir dəyişiklik var. Nicat Abasovu bu dəfə onu Eltac Səfərli əvəzləyib.

Qadınlardan ibarət komandanın heyətində Budapeşt Olimpiadası ilə müqayisədə dəyişiklik yoxdur. Səmərqənddə də iki il əvvəl olduğu kimi, Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Xanım Balacayeva, Günay Məmmədzadə və Gülnar Məmmədova mübarizə aparacaqlar. Komandanın kapitanı ötən Olimpiadada kişilər arasında çıxış etmiş Nicat Abasov olacaq. O, bu vəzifədə Mixail Şereşevskini əvəzləyib. Tanınmış şahmatçı Qədir Hüseynov isə məşqçi kimi komandaya dəstək göstərəcək.

Şahmatçılarımızın lövhələr üzrə mövqeləri isə hələlik açıqlanmayıb.



## FAVORİT HESAB OLUNMASAQ DA...

Azərbaycan böyük şahmat ənənələrinə malik ölkələrdən biri olsa da, qarşıdakı Olimpiadada əsas favoritlər sırasında göstərilmir. Etiraf etmək lazımdır ki, komandalarımızın daha güclü heyətlə mübarizə apardığı illər də olub. Buna baxmayaraq, hər iki milli komandamızın qarşıdakı yarışda iddialı mübarizə aparmaq üçün kifayət qədər potensialı var.

Reytinq göstəricilərinə əsasən, kişi komandamız hazırda 7-ci pillədə qərarlaşıb. Millimizin orta reytinqi 2667-dir. Bu baxımdan yarışın əsas favoriti ABŞ komandasıdır. Tamamilə elit şahmatçılardan formalaşan Amerika yığmasının orta reytinqi 2753-dür. Şahmatın yaradıcıları olan Hindistan bu siyahıda ikinci pillədədir. İlk üçlüyü “ağıl oyunu”nun son illərdə ən böyük inkişaf yolu keçdiyi ölkələrdən biri olan ev sahibi Özbəkistan tamamlayır. Çin, Almaniya və Niderland da orta reytinq göstəricisinə görə Azərbaycan millisindən öndədir. Qadınlardan ibarət komandamızın orta reytinqi isə 2375-dir. Bu göstəriciyə əsasən Azərbaycan Hindistan, Gürcüstan, Qazaxıstan, Çin, ABŞ və Ukraynadan sonra gəlir.

Statistika komandalarımızı əsas favoritlər sırasında göstərməsə də, Olimpiadanın gedişində vəziyyət dəyişə bilər. Axı şahmatda rəqəmlər yalnız başlanğıc nöqtəsidir. Əsas söz lövhə arxasında deyilir.

## MİLLİ KOMANDALARIMIZIN POTENSİALI DAHA BÖYÜKDÜR

Yığmalarımızın Olimpiada perspektivini dəyərləndirərkən, həm oyunçuların fərdi keyfiyyətlərinə, həm də komanda şəklində uyğunluğuna baxmaq lazımdır. Kişi komandamızda ilk növbədə Şəhriyar Məmmədyarovun təcrübəsini qeyd etməliyik. İllərdir, dünya şahmatının aparıcı simaları arasında yer alan qrossmeyster üçün belə turnirlər artıq tanışdır. Bu dəfə lövhə arxasında Teymur Rəcəbovu görməyəcəyik. O, komandaya kapitan kimi rəhbərlik edəcək. Heyətin digər diqqətçəkən cəhəti isə gənc şahmatçıların çoxluğudur. Aydın Süleymanlı və Məhəmməd Muradlı son illərdə özlərini böyük turnirlərdə göstərməyi bacarıblar. Onların qarşısında indi daha bir ciddi sınaq dayanır. Rauf Məmmədovun təcrübəsi, Eltac Səfərlinin heyətə qayıtması ilə birlikdə komandada həm sabitlik, həm də seçim imkanları formalaşır.

Qadınlardan ibarət millimizdə də oxşar mənzərə var. Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Xanım Balacayeva, Günay Məmmədzadə və Gülnar Məmmədova artıq beynəlxalq səviyyədə kifayət qədər təcrübə toplayıblar. Bu heyətin əsas üstünlüklərindən biri birlikdə oynamaq baxımından böyük dəyişiklik yaşamamasıdır. Həmin yarışda kişi komandamız 8-ci, qadın komandamız isə 15-ci yeri tutmuşdu. Xüsusilə qadın komandasının daha yüksək nəticə göstərməsi gözlənilirdi. Səmərqənd bu baxımdan həm nəticələri yaxşılaşdırmaq üçün yeni imkan yaradır. Azərbaycanın Olimpiada tarixində daha yüksək nəticələri də var. Kişilərdən ibarət komandamız 2008-ci ildə 6-cı, 2014-cü ildə isə 5-ci yeri tutub. Sonuncu göstərici millimizin yarış tarixində ən yüksək nəticəsidir. Deməli, Azərbaycan artıq bir neçə dəfə dünya şahmatının ən güclü komandaları arasında yer almağın mümkün olduğunu nümayiş etdirib. Qadınlardan ibarət komandamızın da Olimpiadalarda yaxşı nəticələri olub. Azərbaycan 1992-ci ildə Manilada keçirilən Olimpiadada 7-ci yeri tutub. Eyni nəticə 2010-cu ildə Xantı-Mansiyskdə də təkrarlanıb. Reytinq cədvəli bizi yeddinci pillədə göstərir, amma Olimpiada kimi uzun turnirdə sabitlik, komanda ruhu, kritik görüşlərdə düzgün qərarlar və ən əsası, imkanlardan maksimum istifadə həlledici olur. Azərbaycanın böyük şahmat ənənəsi var və bu ənənə yeni nəsillə davam edir. Şəhriyarın təcrübəsi, Teymurun kapitan kimi iştirakı, gənc şahmatçıların yüksəlişi və qadın komandamızın formalaşmış heyəti nikbinlik üçün kifayət qədər əsas verir.

Səmərqənddə Azərbaycan şahmatı üçün Budapeştdən daha yaxşı nəticənin vaxtıdır.